REGION PRESS
№01 (176) 15.01.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır
İctimai qəzet
"რეგიონ პრესი" საზოგადოებრივი გაზეთი
www.amm.ge

# 20 Yanvar faciəsindən iyirmi beş il ötür

***Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi beşinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.***




Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı toplantı, konfrans və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və diaspor qurumları tərəfindən müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sənəddə paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

# İ. Qaribaşvili: *"Rusiya hələ də cavab verməyib"*

***"Rusiya əlaqələri inkişaf etdirmək üçün Gürcüstan hakimiyyətinin atdığı addımlara hələ də cavab verməyib".***



Bu açıqlama ilə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili çıxış edib. İ. Qaribaşvili Gürcüstanın ərazi bütövlüyünün tam bərpası istiqamətində səy göstərəcəklərini bildirib:

"Bizim ölkə üçün əsas problem torpaqlarımızın 20 faiz işğal edilməsidir və bu da özlüyündə qaçqın və məcburi köçkünlərlə bağlı digər problemlər yaradıb. Gürcüstan qonşuları ilə münasibətlərinin yaxşı olmasını istəyir. Rusiya əlaqələri inkişaf etdirmək üçün Gürcüstan hakimiyyətinin atdığı addımlara hələ də cavab verməyib. Biz Gürcüstanın ərazi bütövlüyünün tam bərpası istiqamətində səylərimizi davam etdirəcəyik. Həmçinin, yoxsulluğun aradan qaldırılması və sabitliyin inkişafı, o cümlədən süni maneələr yaşayan abxaz və osetin qardaşlarımızın yaxşı yaşamaları üçün səylərimizi əsirgəməyəcək, planlarımızı reallaşdırmaq üçün güclü dövlət yaradacağıq".

Qeyd edək ki, ötən il dekabrın 20-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Rusiya Prezidenti Vladimir Putinlə görüşməyə hazır olduğunu bildirib.

# Bakı ilə Tbilisi arasında qardaşlaşma haqqında memorandum imzalanacaq



Tbilisi şəhərinin meri David Narmania müsahibəsində bildirib ki, Bakı və Tbilisi şəhərlərinin qardaşlaşması ilə bağlı anlaşma memorandumu hazırlanır. O, deyib: "Hazırda bu işlə fəal şəkildə məşğuluq. Gürcüstanın Azərbaycandakı səfirliyi də bu istiqamətdə danışıqlar aparır".

Mer qeyd edib ki, sənəddə iki şəhərin meriyaları arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın inkişaf perspektivləri də nəzərdə tutulub. "Ümid edirəm ki, bu ilin birinci yarısında biz bu memorandumu imzalayacağıq", - deyə o, əlavə edib.



# Məcburi texniki baxış bərpa olundu

***Gürcüstanda avtomobillərin texniki baxışına başlanılır.***

2015-ci il martın 1-dən başlayaraq, Gürcüstanda qeydiyyatdan keçən bütün kateqoriyalı nəqliyyat vasitələri mərhələ ilə məcburi texniki baxışdan keçməlidir.

Gürcüstanda nəqliyyat vasitələrinin texniki vəziyyəti hökumətin Assosiasiya sazişi çərçivəsində Avropa Birliyi qarşısında götürdüyü öhdəliklərə əsasən Avropa standartlarına cavab verməlidir. Hökumətin qərarına görə, avtomobillərin texniki baxışdan keçməsi məcburi olacaq.



Xatırladaq ki, 2004-cü ildən sonra Gürcüstanda texniki baxışdan keçirilmə könüllü idi. Bu il başlayacaq texniki baxış isə avtomobil sahiblərinə 50 lariyə başa gələcək.

## 90 illik yubileyin mübarək, əziz məktəbimiz!



Paşa Nağıoğlu

Səh.5-də

## Azərbaycanlıların gürcü gardaşı - ZEZVA



Qəhrəman Musayev

Səh.6-da

## Havana tərəflərin havası *(transformasiya)*



İbrahimxəlil

Səh.8-də

## LEVAN SANİKİDZE – 90 Böyük alim və istedadlı ədib



Raidə Dərziyeva

Səh.10-da

# TBİLİSİDƏ MÖVLUD BAYRAMI KEÇİRİLDİ

Gürcüstan Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə Gürcüstan paytaxtında Hz. Məhəmməd Peyğəmbərin (s) və Hz. İsanın (ə) mübarək mövludu və eləcə də bu günə təsadüf edən İmam Cəfər Sadiqin (ə) təvəllüdü münasibəti ilə tədbir keçirilib. Tədbir Qurandan ayələrin tilavəti ilə başladıqdan sonra, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Ramin İgidov, BGMİ-nin Acarıstan üzrə müftisi Beqlar Kamaşidze, BGMİ-nin Şərqi Gürcüstan üzrə müftisi Hacı Yasin Əliyev, İran İslam Respublikasının Gürcüstandakı səfiri Abbas Talebifər, Türkiyənin Diyanət Başkanlığının Gürcüstandakı nümayəndəsi Nebi Gümüş və başqaları çıxış edərək Hz. Məhəmməd (s) və İsa (ə) Peyğəmbərin həyatından, onun insanlığa verdiyi örnəklərdən söhbət açaraq, Gürcüstanda İslam dininin inkişafından danışıblar və son günlər bəzi müsəlman ölkələrində və Fransada baş verən hadisələri pisləyiblər. Belə hadisələrin sülhsevər, barışıq və sevgi dini olan İslamla heç bir əlaqəsi olmadığı söylənilib.



Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze tədbir iştirakçılarını Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin adından təbrik edib, hamıya əmin-amanlıq, səadət və xoşbəxtlik arzulayıb. O, çıxışında Fransada baş verən hadisələri Dini Agentlik adından pisləyib və bu hadisələri ekstremizm adlandırıb: "Mən iki həftə bundan əvvəl Tehranda təşkil olunan beynəlxalq konfransda iştirak etdim. Tədbirdə Gürcüstanı təmsil edirdim. Konfrans terrorizm ilə mübarizəyə həsr olunmuşdu. Tədbirdə qeyd olundu ki, dini konfessiyalar arasında anlaşılmazlıq vaxtında həll edilməlidir. Buna görə də təhsil və maarifləndirmə üsullarından istifadə etmək lazımdır. Belə olmasa, bax Fransadakı hadisələr kimi vəhşiliklər baş verəcək," - deyə Z. Vaşakmadze vurğulayıb.

Tədbirdə Azərbaycan, İran və Türkiyə səfirliklərinin rəsmiləri, ölkəmizin müxtəlif yerlərindən gələn müsəlmanlar və din və ictimai xadimlər iştirak ediblər. Mərasimin bədii hissəsində "İxlas" İlahilər qrupunun ifasında bir-birindən gözəl ilahilər səslətdirilib. Sonda məclis iştirakçıları bayram süfrəsinə dəvət olunub.

Qeyd edək ki, İslam dünyası rəbbiül-əvvəl ayının 12-17-si (bu il üçün – 4-9 yanvar) tarixlərini əziz İslam Peyğəmbəri Həzrət Məhəmmədin (s) mövludu günləri kimi qeyd edir. İslamın böyük alimləri bu həftəni "Vəhdət həftəsi" elan ediblər. Bu tədbirin keçirilməsində İran İslam Respublikası və Türkiyənin dini nümayəndəlikləri BGMİ ilə əməkdaşlıq etmişlər.

**Nizami Məmmədzadə**

# Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi başa çatır

***Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi artıq başa çatır və sınaqlar keçirilir.***

Bu sözləri Prezident İlham Əliyev Nazirlər Kabinetinin yanvarın 10-da keçirilən 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı yekun nitqində söyləyib.

Dövlət başçısı qeyd edib ki, Azərbaycan tərəfindən bütün işlər demək olar ki, görülübdür. Ümid edirəm ki, bütün başqa sahələrdə tikinti-quraşdırma işləri bu il başa çatacaq və biz bu layihənin açılışını qeyd edəcəyik.

"Bu da tarixi layihədir. Uzun illər bu layihə ətrafında danışıqlar, müzakirələr gedirdi. Ancaq Azərbaycan həm öz vəsaitini, həm də iradəsini ortaya qoyduqdan sonra bu layihə artıq reallaşmağa başlamışdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.



# Gürcüstanda yaşayan azərbaycanlılar üçün güzəştlər tətbiq edilə bilər

***Gürcüstan vətəndaşı olan azərbaycanlılar üçün Azərbaycanda müxtəlif imtiyazların tətbiq olunması təklif edilir.***




Milli Məclisin deputatı Fərəc Quliyev Trend-ə bildirib ki, bununla bağlı Azərbaycan Parlamentinin yaz sessiyasında təklif irəli sürəcək.

F.Quliyev hesab edir ki, əcnəbi vətəndaşlarla Gürcüstan vətəndaşı olan azərbaycanlılar arasında müəyyən fərq qoyulmalıdır: "Bu ya "Vətəndaşlıq haqqında" qanuna dəyişiklik kimi və ya ayrıca qanun kimi də qəbul oluna bilər. Bilirsiniz ki, Azərbaycanda ikili vətəndaşlıq yoxdur, ancaq biz çalışıb həmvətənlərimizlə bağlı elə bir müddəa nəzərdə tutmalıyıq ki, miqrasiya qanunvericiliyində digər əcnəbilərlə Gürcüstanda yaşayan azərbaycanlılar arasında bir fərq olsun. Yəni yaşamaq, işləmək, əmlak, iş qurmaqla bağlı əlavə imtiyazlar olsun".

Bununla bağlı Gürcüstanda yaşayan soydaşlarımızdan müraciətlərin daxil olduğunu deyən millət vəkili bildirib ki, bu imtiyazlar ikili vətəndaşlığı əhatə edəcək çərçivədə olmalıdır: "Gürcüstan vətəndaşı olan çoxlu sayda soydaşımız Azərbaycana gəlir, burada işləyir. Hesab edirəm ki, bu güzəşti etməklə onlara xeyli kömək etmiş olarıq", - deyə o vurğulayıb.

# Marneulidə "Azərbaycanlı gənclərin NATO və Avropa İttifaqı haqqında məlumatlandırılması" layihəsinə yekun vurulub

***Marneuli şəhərində NATO İnformasiya Mərkəzi, Rumıniyanın Gürcüstandakı səfirliyi və Marneuli Gənclər Mərkəzinin (MGM) birgə layihəsi əsasında NATO rəsmiləri ilə azərbaycanlı gənclərin görüşü keçirilib.***

APA-nın Gürcüstan bürosunun məlumatına görə, NATO İnformasiya Mərkəzinin direktor müavini Tamar Medulaşvili, Rumıniyanın Gürcüstandakı səfirliyinin I katibi Radu Qorinçoi, Gürcüstanın Avropa və Avroatlantika strukturlarına inteqrasiya məsələləri üzrə dövlət nazirliyi departamentinin aparat direktoru Nata Koridze, Gürcüstan Barış və Vətəndaş bərabərliyi məsələləri üzrə dövlət nazirinin müşaviri Zaur Dərğallı və Marneuli rayon icra hakimiyyətinin başçısı Merab Topçişvili iştirak ediblər.

Görüşdə "Marneulidə yaşayan gənclərin NATO və Avropa İttifaqı (Aİ) haqqında məlumatlandırılması" layihəsi çərçivəsində intellekt yarışmasına yekun vurulub. Yarışmada Marneulidə fəaliyyət göstərən azərbaycandilli orta məktəblərdən Sadaxlı, Qasımlı, Ağməmmədli, Alget, Qullar-Qırxılı, Qaçağan və Marneuli məktəblərindən ümumilikdə 210 şagird iştirak edib. Nəticədə finala 35 nəfər (7 komanda) çıxıb.



Tədbirin sonunda Qaçağan, Alget və Qasımlı məktəbliləri I, II və III yerlərə layiq görülüblər. Sonda NATO rəsmiləri və dövlət qurumlarının nümayəndələri qalibləri mükafatlandırıblar.

Rumıniyanın Gürcüstandakı səfirliyinin I katibi R. Qorinçoi APA-ya açıqlamasında yarışda iştirak edən azərbaycanlı şagirdlərin bilik səviyyəsini bəyəndiyini və belə yarışların davam etdirilməsinin vacibliyini vurğulayıb: "Biz çox şadıq ki, azərbaycanlı şagirdlər NATO və Avropa İttifaqı haqqında kifayət qədər məlumatlıdırlar. Onlar demək olar ki, bütün suallara yüksək səviyyədə cavab verdilər. Biz gördük ki, bu şagirdlərlə MGM ətraflı iş aparıb və onların layiqli şəkildə hazırlaşmasına kömək edib. Biz istərdik ki, bu yarışlar səfirliyimizin dəstəyi ilə davam etdirilsin. Çünki bölgələrdə yaşayan gənclərin məlumatlandırılması, onların hərtərəfli inkişafı və yüksək səviyyədə hazırlığı vacibdir. Arzu edirik ki, onlar gələcəkdə yaşadıqları bölgələrdə Gürcüstanın inkişafı və uğuru naminə çalışsınlar".




# Təbrik edirik!

Yeni il ərəfəsində Gürcüstanın azərbaycandilli kütləvi informasiya vasitələri sırasına "Ümid" də qoşuldu. "Ümid" Bolnisi Mədəniyyət Mərkəzinin orqanı kimi azərbaycanlı əhalinin informasiya qıtlığının aradan qaldırılmasını, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılmasını, soydaşlarımızın cəmiyyətə inteqrasiyasını qarşısına əsas məqsəd kimi qoyub.

Təsisçi Fikrət Məmmədov, redaktor Əlixan Yəhyaoğludur. "Ümid"ə qarşıya qoyduğu məqsədə çatmasında yaradıcılıq uğurları arzulayırıq.

## *"RegionPress" qəzetinin redaksiyasına!*

Əziz həmyerlilərim! Sizin mənim 60 illik yubileyim münasibəti ilə bildirdiyiniz xoş arzu və istəklərinizə görə dərin minnətdarlığımı və AMM-ə, başda Fazil müəllim olmaqla onun hər bir təəssübkeşinə təşəkkürümü bildirir və işlərinizdə müvəffəqiyyətlər arzulayıram!

**Hörmətlə, David Nəsibov,**
***AzTU-nun "İnformasiya Texnologiyaları və Proqramlaşdırma" kafedrasının dosenti***

# ELAN

Təqaüdlə bağlı müraciət edən tələbələr aşağıdakı sənədləri fevral ayının 20-ə kimi AMM-ə təqdim etməlidirlər:

1. *Təhsil haqqında arayış*
2. *Şəxsiyyət vəsiqəsinin əsli*
3. *Qış semestrinin qiymət vərəqəsi*
4. *2 ədəd 3X4 ölçülü fotoşəkil*
5. *AMM-in adına ərizə*

Məlumat üçün bir daha nəzərinizə çatdırırıq ki,təqaüdlər ilk növbədə, Gürcüstanın akkreditə olunmuş ali təhsil ocaqlarında oxuyan,təhsildə yüksək göstəricilər əldə edən və imkansız ailələrdən olan tələbələrə ayrılacaq.

Əlaqə telefonları:
0357 22 29 29
555 355 127; 593 656 130
**Azərbaycanlıların Mədəniyyət Mərkəzi**

*Marneuli icra hakimiyyətində*

## Yerli özünüidarə məmurlarının hazırlıq mərkəzi Marneuli qrupuna sertifikatlar təqdim etdi



Yanvarın 6 da, yerli özünüidarə məmurlarının hazırlıq mərkəzi marneulililərdən ibarət dinləyici qrupuna, kursu uğurla bitirdiklərini təsdiqləmək məqsədi ilə onlara sertifikatlar verdi. Sertifikatların təltif olunma mərasimi Marneuli bələdiyyəsi icra hakimiyyəti binasında keçirildi. Tədbirdə icra başçısı Merab Topçişvili, bələdiyyənin rəhbər şəxsləri, hazırlıq mərkəzinin nümayəndələri də iştirak edirdilər.

Xatırladaq ki, Marneulidə yerli özünüidarə məmurlarının attestasiya imtahanı dekabrın 26-28-də təşkil olunmuşdu. Yerli özünüidarə məmurlarının hazırlıq mərkəzi imtahanqabağı sınaqda iştirak edəcək şəxslərə bir neçə həftə Gürcüstan Konstitusiyası, "İctimai xidmət haqqında" Gürcüstan qanunu, "Ümumi İcbari Məcəllə" və ümumi bilik, Avropa xartiyası üzrə mühazirələr keçərək onları imtahanlara hazırlayıb.

## Aztəminatlı ailələrə bayram hədiyyələri



Marneuli icra hakimiyyətinin təşəbbüsü və səyləri nəticəsində sosial cəhətdən aztəminatlı 260 ailəyə yeni il axşamını yaxşı keçirmələri üçün bayram hədiyyələri paylanıb.

Ərzaq məhsulları və şirniyyatlardan ibarət bayram hədiyyələrinin paylanma prosesində icra başçısı Merab Topçişvili, yerli özünüidarə nümayəndələri iştirak ediblər. Onlar aztəminatlı ailələrə baş çəkərək qarşıdan gələn yeni illərini təbrik ediblər.

Gözdən əlil və Qırmızı Xaçın benefisiarları olan 30 ailə də yeni il hədiyyəsi alıb. Onlara Marneuli bələdiyyəsi və Qırmızı Xaç tərəfindən ilkin gigiyena əşyaları və şirniyyat paylanıb.

Müharibədə həlak olan 13 əsgər və 461 qaçqın ailəsinə də yeni il qabağı 100 lari məbləğində pul verildi.

## Marneuli bələdiyyəsində yeni il şənliyi

Marneuli Mədəniyyət Evinin həyətində yeni il tədbiri 31 dekabr saat 16:00-da başladı. Əhalidə yeni il əhval-ruhiyyəsini qaldırmaq üçün yerli musiqi və rəqs qrupları əllərindən gələni etdilər.

Müxtəlif təşkilatlar və kompaniyalar yeni il aksiyalarını təqdim etdilər.




Yeni il tədbirində uşaqlar və yeniyetmələr üçün pulsuz əyləncə proqramı da gerçəkləşdi. Onlardan yeni il filminin nümayişi, Şaxta Baba tərəfindən yeni il hədiyyələrinin paylanması, sirk tamaşaları, sabun köpüklərini şişirtmək və s. nəzərə daha çox çarpırdı.

Əhalinin yeni ili şənliyinə Marneuli bələdiyyəsinin aparıcı şəxsləri və icra başçısı Merab Topçişvili də qoşuldu.

"Hörmətli Marneulililər və həmvətənlilərim, yeni iliniz mübarək! 2015 ci il sizin hər birinizin ailəsinə, bütün Gürcüstana sülh, əmin-amanlıq, birlik və xoşbəxtlik gətirsin. Ümid edirəm 2015 ci il bələdiyyəmiz üçün, əhali üçün daha səmərəli və məhsuldar olacaq."-icra başçısı tədbirə yığılan sakinlərə bu sözlərlə müraciət etdi.

Tədbirin gedişatı zamanı qol güləşi üzrə yarış təşkil olundu. Bu yarışda qalib şəxslərə icra başçısı xatirə diplomu təqdim etdi. Bundan əlavə akrobatika, gimnastika və digər maraqlı nömrələr nümayiş olundu.

Qeyd etmək lazımdır ki, tədbirin sonunda məşhur DJ-in müşayiəti altında möhtəşəm lazer şousu təşkil olundu.

## Marneulidə Alilo yürüşü təşkil olundu

İsa Məsihin anadan olduğu gün – 7 yanvar tarixində bu möhtəşəm bayramı xristianlar Marneulidə də təntənəli şəkildə qeyd etdilər. Marneulinin mərkəzində Qurucu David adına kilsədən Alilo yürüşü başlayaraq şəhərin mərkəzi küçəsi boyunca davam etdi.

İsa Məsihin doğum gününü qeyd edənlərin yürüşündə ənənəvi arabaya yürüş iştirakçıları və şəhər sakinləri bayram payları yükləyirdilər. Bu hədiyyələr bayramdan sonra kimsəsiz uşaqlar evinə verilib. Bayram yürüşündə Marneuli və Hucabi yeparxiyasının baş yepiskopu Qiorqi də vardı. Məhz yepiskop Qiorqinin təşkilatçılığı ilə Marneulidə Alilo yürüşü bu il ikinci dəfə təşkil olundu.



Alilo yürüşü icra hakimiyyəti qarşısında müvəqqəti dayandı. Orada icra başçısı Merab Topçişvili, bələdiyyənin rəhbər şəxsləri ilə birlikdə Alilo iştirakçılarına şirniyyat və ərzaqlar ilə dolu torbalar təqdim edərək bayramlarını təbrik etdi. Alilo yürüşü Mədəniyyət evinin həyətində sona çatdı. Sonda yepiskop Qiorqi yürüş iştirakçılarına xeyir-dua verdi.

## Marneulidə azərbaycanlılar etiraz aksiyası keçiriblər

Gürcüstanın Marneuli rayonunun azərbaycanlıların kompakt yaşadığı Əzizkənd, Təzəkənd və Hacıisakənd kəndlərinin sakinləri etiraz aksiyası keçiriblər.

APA-nın Gürcüstan bürosunun məlumatına görə, hər üç kəndin sakinləri Marneulidən Qırmızı Körpü istiqamətinə uzanan və əsas magistral yola birləşən 11 kilometr uzunluğunda yolun asfaltlaşdırılmasını və onları narahat edən digər problemlərin həllini tələb ediblər. Aksiyada 100 nəfərdən çox kənd sakini iştirak edib. İki saat davam edən aksiyadan xəbər tutan Marneuli rayon icra hakimiyyətinin başçısı Merab Topçişvili və rayon bələdiyyəsinin sədri Nəbi Abdullayev kəndlərə gələrək sakinlərin tələblərini dinləyiblər.

M. Topçişvili sakinləri dinlədikdən sonra 11 kilometrlik kənd yoluna asfalt çəkilişinin 2016-cı ilin dövlət planına salındığını bildirib: "Bu yolun artıq 7 kilometrə qədər hissəsi asfaltlaşdırılıb. Yalnız 11 kilometr yola hələlik asfalt çəkilməyib. Biz sizin tələbinizi nəzərə alaraq indi dövlətin müvafiq strukturlarından həmin sahənin bu il asfaltlaşdırılması üçün vəsait ayrılmasını xahiş edəcəyik. Əgər bizə müsbət cavab verilməsə, onda biz rayon büdcəsindən ayrılan vəsait hesabına bu il həmin yola çınqıl və daş döşəyib, asfalt örtüyü çəkmək üçün hazırlıq işləri görəcəyik. Gələn il isə dövlət büdcəsindən plana uyğun olaraq ayrılan vəsaitlə müasir standartlara uyğun asfalt yol çəkib sakinlərin istifadəsinə verəcəyik".

**Nizami Məmmədzadə**

## Zaza Vaşakmadze: *"Bu il də məscidlərin qeydiyyat məsələsinə baxılacaq"*

***"Dini icmalara maliyyə yardımı ayırmaq yenilikdir. Bu layihə ilk dəfə Gürcüstanda həyata keçirilir".***



APA-nın Gürcüstan bürosunun məlumatına görə, bunu Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze Azərbaycan jurnalistlərinə açıqlamasında deyib. O bildirib ki, yardım 4 icmaya ayrılıb: "Keçən il dövlət müxtəlif dini icmalara bir neçə milyon lari yardım ayırmaq barədə qərar verib. Bu il isə 3 milyon 500 min lari yardım ayrılacaq. Bu vəsaitin xərclənməsi bir neçə meyarla müəyyənləşəcək. Dövlətin ayırdığı yardım təhsil, mədəni, xeyriyyə, bərpa işlərinə və dinin təbliğinə, eyni zamanda dini kitabların nəşrinə, qəzet və jurnalların buraxılmasına sərf olunacaq".

Z. Vaşakmadze dövlət büdcəsindən ayrılan vəsaitin Gürcüstan Pravoslav Kilsəsi, Gürcüstan Müsəlmanları İdarəsi, erməni Apostol Pravoslav Müqəddəs Kilsəsi və yəhudi icmasına veriləcəyini söyləyib: "Gürcüstanda fəaliyyət göstərən dini konfessiyalar dövlətimizin mənafeyi uğrunda çıxış etməlidir. Gürcüstan elə bir unikal dövlətdir ki, burada şiə və sünnilərin birliyi baş tutub. Biz bütün icmalara qayğı ilə yanaşır və yardım edirik".

Z. Vaşakmadze məscidlərin qeydiyyatdan keçirilməsinə də münasibət bildirib: "Agentliyin nəzdində xüsusi komissiya fəaliyyət göstərir. Bu komissiya məscidlərin hüquqi sənədlərini öyrəndikdən sonra qeydiyyat məsələlərini nəzərdən keçirəcək. Keçən il komissiyanın iclasında 21 məscidin qeydiyyatdan keçməsi məsələsinə baxılıb. Agentliyimiz 6 aydır ki, yaradılıb. Biz ümumilikdə 44 məscidin qeydiyyatına baxacağıq".

## 2014-cü ildə 30 mindən artıq nikah qeydə alınıb



***Gürcüstanda 2014-cü ildə 30 844 nikah qeydə alınıb. Ötən ildə ən çox nikahların sayı (3 307) sentyabrda qeydə alınıb.***

Gürcüstanın Vətəndaş reyestri xidmətindən verilən məlumata görə, nikahların sayının ən çoxu Tbilisi, Batumi, Kutaisi, Telavi, Marneuli, Msxeta, Siqnaxi və Axalkalakidə rəsmiləşdirilib. Ötən ildə nikah bağlamış kişilərin orta yaşı 31, qadınların isə 28 olub.

24 135 halda kişilər qadınlardan yaşca böyük idilər, 6 700 halda isə əksinə qadınlar yaşca böyük idilər.

## Marneuli bələdiyyəsinə USAİD-in hədiyyəsi

USAID
FROM THE AMERICAN PEOPLE

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) Marneuli rayon bələdiyyəsinə ofis avadanlıqları hədiyyə etmişdir. USAİD-in direktoru Stiven Hoykinin təşəbbüsü ilə "Gürcüstanda demokratik idarəçilik" (G3) proqramının sona çatması ilə əlaqədar avadanlıqların Marneuli bələdiyyəsinə bağışlanması qərara alınmışdır.

Rayon icra hakimiyyətinin başçısı Merab Topçişvili diqqət və hədiyyəyə görə USAİD-ə təşəkkürünü bildirmişdir.

# Türkiyənin İzmit şəhərində Xocalı şəhidlərinin xatirəsinə abidə qoyulur

***Türkiyənin İzmit şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə qoyulur.***



Məlumata görə, İzmit bələdiyyəsi tərəfindən inşa etdirilən abidənin açılışı gələn ay baş tutacaq.

İzmit bələdiyyəsinin sədri Nevzat Doğanın təlimatı ilə inşa edilən "Xocalı Şəhidləri" abidəsi İzmitin Yenişəhər Məhəllə meydanında ucaldılır.

Abidənin hündürlüyü 3,30 metrdir.

# Mövlud Çavuşoğlu: *TANAP Türkiyənin prioritetidir*



Trans-Anadolu boru kəməri (TANAP) layihəsi Türkiyə üçün prioritetdir. Bunu ölkənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. Məlumatı Türkiyənin "Özelhaberler" xəbər portalı yayıb.

Nazirin sözlərinə görə, TANAP Azərbaycan, Gürcüstan və Avropa ölkələri üçün də vacibdir.

M.Çavuşoğlu qeyd edib ki, Trans-Adriatik boru kəməri (TAP) layihəsinin reallaşdırılmasından sonra Avropaya qaz tədarükü təmin ediləcək.

# Nyu-York ən çirkli şəhər elan edilib

Nyu-York ABŞ-ın ən çirkli şəhəri elan edilib. Bu barədə "Səyahət və istirahət" jurnalının apardığı sorğunun nəticələrindən məlum olub. ABŞ-ın ən iri meqapolisinin göstəriciləri ötən illə müqayisədə pisləşib.

Respondentlərin fikrincə, Nyu-York həm də Amerikanın ən səs-küylü şəhəri, sakinləri isə ən kobud amerikalılardır. Digər tərəfdən, "Böyük alma" (Nyu-Yorku bəzən belə də adlandırırlar) dəblə geyinmiş adamların, bahalı dükanların, teatrların sayına görə birinci yerdədir.



"Antireytinq beşliyi"nə Yeni Orlean (Luiziana ştatı), Baltimor (Merilend ştatı), Los-Anceles (Kaliforniya ştatı), Atlanta (Corciya ştatı) da daxildir. ABŞ-ın 35 şəhərinin qiymətləndirildiyi sorğuda 35 min adam iştirak edib.

# Putin Astanada Avropa nəhəngləri ilə görüşəcəkmi?



***"Putinin Astanadakı görüşə qatılacağı sual altındadır"***

Bunu Rusiya Federasiyası Prezidentinin Mətbuat katibi Dmitri Peskov söyləyib.

Onun sözlərinə görə, Putinin Normand formatındakı danışıqda iştirakı ekspertlərin işindən asılıdır:

"Normand formatındakı görüşün yanvarın 15-də Qazaxıstanın paytaxtı Astanada baş verəcəyi planlaşdırılıb. Hazırda görüş üçün ekspertlər səviyyəsində hazırlıq işləri gedir. Putinin iştirakı da danışıqların nəticəsindən asılı olacaq".

Qeyd edək ki, görüşdə Ukrayna, Rusiya, Fransa prezidentləri və Almaniya kanslerinin iştirak edəcəyi planlaşdırılıb.

# B. Nemtsov: *"Kremlin yalnız bir yolu qalır"*

***"Rusiyanın ehtiyat fondunda 80 milyard dollar pulu var".***

Bunu rusiyalı müxalifətçi Boris Nemtsov söyləyib.

O, dolların kursunun 70-80 rubla qədər bahalaşacağını bildirib:

"Brent markasının bareli 48 dollardan aşağıdır, dolların kursu isə 63,5 rubldur. Bu, nə deməkdir?



15 il ərzində Rusiyanın ilk dəfə olaraq heç bir büdcəsi yoxdur, daha doğrusu, sadəcə, rəsmi olaraq qəbul olunub. Belə olan halda hökumət nə etməlidir?

Onun ehtiyat fondunda 80 milyard dollar pulu var və bunu zərəri qarşılamaq üçün kompensasiya etmək mümkündür. Hazırda isə pul çap eləməyə başlayacaq və bunu müntəzəm olaraq həyata keçirəcəklər. Bu, 2015-ci ildə nəinki yüksək inflyasiya, eyni zamanda, sonrakı devalvasiyadır. 2014-cü ilə nisbətən bu il inflyasiya daha yüksək olacaq. Dolların kursunun 70-80 rubl olması isə qaçılmaz reallıqdır. Bəs bundan kim əziyyət çəkəcək? İlk növbədə regionlar. Bu isə tibb, təhsil və digər sahələr deməkdir. Belə olan təqdirdə Kremlin yalnız bir yolu var. Kreml neftin bahalaşması üçün gərək Allaha dua etsin".




**1559** — İngiltərə kraliçası I Yelizaveta taxta çıxmıb.

**1759** — Britaniya Muzeyinin açılışı olub.

**1892** — Basketbol qaydaları bu idman növünün vətəni sayılan ABŞ-ın Massaçusets ştatının Sprinqfild şəhərində elan edilib.

**1964**—III London Konfransında İngiltərə, Türkiyə, Yunanıstan təmsilçiləri ilə birgə Şimali Kiprin və adanın rum qisminin təmsilçiləri də iştirak edibr.

**1970** — Müəmmar Qəddafi Liviyanın baş naziri seçilib.

**1992** — Avropa dövlətlərinin Xorvatiya və Sloveniyanın müstəqilliyini rəsmən tanıması ilə Yuqoslaviya dağılıb.

**2010** — saat 5.10 dəqiqədə Azərbaycanın 9 milyonuncu sakini dünyaya gəlib.

# Dubay aeroportu rekord vurdu

***Beynəlxalq aeroportun rəhbəri Hitronu keçdiklərini bildirdi.***

Dubay aeroportu 2014-cü ildə beynəlxalq reys sərnişinlərinin sayı üzrə dünyada ən çox yüklənmiş aeroport olub.

Bu haqda Dubay beynəlxalq aeroportunun rəhbəri Pol Qriffits açıqlama verib.

"The Financial Times" qəzeti bildirir ki, Qriffits əvvəllər Londonun Qetvik aeroportuna rəhbərlik edib. Keçən il ərzində Dubayın Al-Maktum aeroportu beynəlxalq reyslərin 71 milyon sərnişininə xidmət edib. Halbuki Hitrounun xidmətlərindən 68,1 milyon insan istifadə edib. Britaniya aeroportlarında vəziyyətlə yaxşı tanış olan Pol Qriffits əmindir ki, Hitrou beynəlxalq reyslərinin xidmət edilmiş sərnişinlərinin sayı üzrə liderliklərini qaytara bilməyəcək.

Dubayın beynəlxalq aeroportunun irəliləyişində əsası 1985-ci ildə qoyulmuş Emiratesin əməyi böyükdür.



Əmirliyi idarə edən ailəyə məxsus Emirates dünyada ən böyük sərnişin laynerlərinin flotuna malikdir.

Asiya-Sakit okean regionunun aviasiyası mərkəzinin (CAPA) proqnozlarına görə, Dubay aeroportu 2015-ci il ərzində yüklülük üzrə liderliyi saxlayacaq. Hesabata əsasən, 2014-cü ildə aeroportun mövcud terminallarının yenidən qurulmasına və yenilərin tikintisinə 7,5 milyard dollar sərmayə qoyulub.

# Yapon ordusu dünyaya meydan oxuyacaq

Yaponiya hökuməti indiyədək rekord həcmdə hərbi büdcə layihəsini qəbul edib. 96.3 trilyon yen, yəni 814 milyard dollarlıq dövlət büdcəsinin 5 trilyon yeni, yəni 42 milyard dolları hərbi büdcənin payına düşür.



Yaponiyada hərbi xərclərin 2,8% artırılaraq, rekord həddə çatdırılması Çinlə Şərqi Çin dənizindəki adaların statusu ilə bağlı mübahisənin kəskinləşməsi fonunda baş tutub.

Yaponiyanın baş naziri Sindzo Abe keçirdiyi mətbuat konfransında bildirib ki, Tokio bu il patrul nəqliyyat vasitələri, strateji pilotsuz təyyarələr, F-15 qırıcı təyyarələri və digər hərbi texnika almaq niyyətindədir.

Ötən il Yaponiya parlamenti konstitusiyaya dəyişiklik edərək, yapon ordusunun qlobal arenada fəaliyyət imkanlarını genişləndirib. Yeni sənədə əsasən, Yaponiyanın silahlı qüvvələrindən ölkənin hüdudlarından kənarda da müttəfiqlər tərəfindən istifadə edilə bilər. Bu isə Çinin etirazına səbəb olmuşdu.

# Kuba bütün dissidentləri azadlığa buraxıb



***Kuba hökuməti ABŞ-ın siyahısında olan bütün dissident məhbusları həbsdən azad edib.***

Xəbərə görə, Kuba hökuməti ölkə həbsxanalarında olan 53 dissidenti azadlığa buraxıb və bu barədə Vaşinqtonu məlumatlandırıb.

Bu addım ABŞ-la diplomatik əlaqələrin bərpası haqda bu yaxınlarda əldə olunan razılığa əsasən atılıb. Həbsdən buraxılanların arasında "Amnesty International" təşkilatının "vicdan məhbusu" saydığı tanınmış fəallar, mədəniyyət xadimləri də var. Hüquq müdafiəçiləri həmin şəxsləri siyasi məhbus saysa da, Kuba hakimiyyəti onların müxtəlif qanun pozuntuları əsasında həbs olunduğunu bildirirdi.

# Kənan Vahidoğlu: *“Ümid edirəm ki, qalan problemlərimiz də mərhələ-mərhələ həll ediləcək”*



**Qardabani rayon İcra Hakimiyyətinin Ağtəhlə kəndi üzrə səlahiyyətli nümayəndəsi Muradov Kənanı oxucularımıza təqdim edirik:**

*Muradov Kənan Vahid oğlu 1980-ci il dekabr ayının 2-də Qardabani rayonunun Ağtəhlə kəndində, ziyalı ailəsində anadan olub. Kənan Muradov 1999-cu ildə Ağtəhlə kənd orta məktəbi bitirdikdən sonra, 2001-ci ildə Tbilisidəki Maliyə-Kredit Akademiyasının Qardabani rayonundakı filialına qəbul olur. 2004-cü ildə Akademiyanı bitirən Kənan Vahid oğlu 2007-ci ildən 2010-cu ilə qədər Ağtəhlə kəndində rayon icra hakimiyyətinin səlahiyyətli nümayəndəsinin müavini vəzifəsində işləyir. 2010-cu ildən bu günə qədər isə Qardabani rayon İcra Hakimiyyətinin Ağtəhlə kəndi üzrə səlahiyyətli nümayəndəsi vəzifəsində çalışır. Ailəlidir, 3 övladı var.*

**– Kənan Vahidoğlu, bilmək istərdik ki, kəndinizin əhalisi nə qədərdir, məşğuliyyəti nədən ibarətdir? Bu günə qədər kənddə hansı işlər görülüb?**

– Mən onu deyə bilərəm ki, Ağtəhlə kəndi qədim kəndlərdən biridir. Ümumilikdə, 6 min əhalisi və 2000-dən artıq təsərrüfatı var. Kənd əhalisinin məşğuliyyəti maldarlıq və kiçik biznesdir. O ki, qaldı kəndimizdə son illərdə görülən işlərə, deyə bilərəm ki, kənd orta məktəbinə gedən 1 kilometrlik yol əsaslı təmir edilərək, asvalt döşəmə ilə örtülüb, kəndimizdən keçən mərkəzi magistral yola gecə işıqlarının qurulması işləri həyata keçirilib, eləcə də, Ağtəhlə kəndinin köhnə Mədəniyyət evi əsaslı təmir edilərək sakinlərin istifadəsinə verilib.

**– Gələcəkdə görəcəyiniz işlər barədə nə deyərdiniz?**

– Mən bu vəzifəyə təyin olunandan bu günə qədər kənd sakinləri ilə əlbir işləyirəm. Kənd ağsaqqalları ilə daima məsləhətləşirəm. Mən gənc olsam da, onların məsləhəti, qarşılıqlı anlaşma ən çətin problemləri belə həll edir. Gələcəkdə kəndimizdə görüləcək işlər barədə onu deyə bilərəm ki, kəndin suvarma su kanalları əsaslı təmir edilməlidir, içməli su xəttimiz isə artıq çürüyüb, onların dəyişdirilərək yenisi ilə əvəz olunması, sonra kəndarası küçələrin əsasli təmirini, eləcə də kəndimizdə uşaq bağçasının tikilməsini planlaşdırırıq.

**– Kənan müəllim, siz Ağtəhlə kəndini necə görmək istərdiniz?**

– Bildiyiniz kimi, Ağtəhlə kəndi qədim tarixə malik bir kənddir. Mən işlədiyim müddətdə çalışacam ki, kəndimizdə mövcud problemlər həll edilsin. Artıq onların bir qisminin həllinə nail olmuşuq. Ümid edirəm ki, yaxın gələcəkdə də, digər mövcud problemlər mərhələ-mərhələ öz müsbət həllini tapacaq. Buna görə də biz işləməliyik və mövcud problemləri rayon rəhbərliyi qarşısında qaldırmalıyıq. Kəndimizi isə abad və firavan görmək istəyirəm.

**Nadir Almazoğlu**

# 90 illik yubileyin mübarək, əziz məktəbimiz!

Məktəb hər bir xalqın və millətin balalarının elm və təhsil məbədgahıdır. Hər bir insan övladı bu müqəddəs təhsil məbədinin gurrah təhsil çeşməsinin gözündən “elm-urfan suyu” içib arzularının qanadında fəzilətlər aləminə pərvəriş edirlər. xalq üçün, millət üçün faydalı şəxsiyyətlər olurlar. Məktəb xalqın və millətin varlığı, mənəvi cəhətdən yaşam tərzinin atributlarından ən başlıcasıdır. Hüquqi cəhətdən isə hökumət və dövlətin xalqa göstərdiyi qayğının konstitusion təzahürüdür. Nə isə.

Mən bu yazımda Marneuli rayonunun Alget kənd Bələdiyyəsinin dairəsində fəaliyyət göstərən Əzizkənd ümumi məktəbinin keçdiyi həyat yolundan bəhs edəcəyəm.

Bu doğma məktəbin 90-illik yubileyi başa çatır. İki əsrin yol yoldaşı olan məktəbimiz indinin özündə də təmkinlə, qürurla balalarımızın xidmətində dayanıb.

İlk öncə, Əzizkənd məktəbi 1916-cı ildə Culfa oğlu Hacı Rza kişinin evində açılıb. Ancaq məktəb təhsil sisteminə əsaslanmadığına görə və dünyəvi xarakter daşımadığı üçün uzunömürlü olmayıb, bağlanılıb və xeyli müddət fasilə verilib. Sovet hökumətinin qayğısı əsasında 1924-1925-ci tədris ilində açılmış natamam komplektlə 4 illik əmək məktəbi fəaliyyətə başlamışdır. Bu tədris ilinində ömrü uzun olmamışdır – 1925-1926-cı tədris ilində fəaliyyəti dayandırılmışdır.

1926-1927-ci tədris ilində məktəb yenidən 4-illik məktəb kimi işə başlayıb. Deməli, bu məktəbin qərarlaşdırılmış əsas fəaliyyəti 1926-1927-ci tədris ilindən başlayıb.

Məktəb 1956-1961-ci illərdə yeddiillik, 1961-ci ildən 1966-cı ilə qədər səkkizillik həcmdə fəaliyyət göstərib. 1966-cı ildən isə orta məktəb statusu qazanıb. Hal-hazırda ümumi məktəb kimi tam orta təhsil verir. Bu tarixlərdən indiyə qədər məktəbimiz dəyərli və səmərəli təhsil sistemi keçib. Qürur duyuruq ki, bu illər ərzində məktəbimizin bir sıra yetişdirmələri olub ki, onları barmaqla göstərirlər.

Buna misal olaraq məktəbimizin ilk yetişdirməsi – Gəncə Kənd Təsərrüfatı Akademiyasının professoru Culfayev Salman Əsgər oğlunu göstərmək olar ki, ömrünü elmə və kənd təsərrüfatı mütəxəssislərinin yetişdirilməsinə həsr edib. Onun dəyərli elmi əsərləri kənd təsərrüfatı təmayüllü ali məktəblərdə və texnikumlarda dərs vəsaiti kimi tədris edilir. Salman müəllim elmi ictimaiyyət tərəfindən dəyərləndirilən alimlərdəndir. İşlədiyi akademiyada professor-müəllim heyətinin dərin hörmətini qazanıb.

İstedadlı və böyük alim olan Məmməd Bayram oğlu da bu qəbildən olan alimlərdəndir. Məmməd müəllim 1962-ci ildə keçmiş V.İ.Lenin adına APİ-nin (indiki N.Tusi adına Pedaqoji Universitetin) riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1964-1965-ci tədris ilində Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda aspiranturaya daxil olmuşdur. 1969-cu ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1970-ci ildə baş elmi işçi seçilmişdir. 1977-ci ildən həmin institutun “Differensial operatorlar tənlikləri” şöbəsinə müdir təyin olunmuşdur.

O, 1987-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1989-cu ildən professordur. Məmməd Bayram oğlu 25 nəfərdən artıq alim yetişdirmişdir və onların elmi rəhbəri olmuşdur. 70-dən artıq əsəri işıq üzü görmüş və beş dərs vəsaitinin müəllifidir. Onun elmi əsərləri Moskva, Minsk, Kiyev, Almaatı, Tbilisi, Ulyanovsk şəhərlərində, ABŞ, Çili, Hindistan, Türkiyə, Polşa və sair ölkələrin elmi jurnallarında çap olunmuş və dünya riyaziyyatçılarının diqqətini cəlb etmişdir. Müəlliflik imzası beynəlxalq miqyasda şöhrət qazanmışdır.

1993-cü ildən 2011-ci ilədək Türkiyənin İstanbul şəhərindəki Yıldız Texniki Universitetində professor kimi elmi və pedaqoji fəaliyyətini davam etdirmişdir. Məmməd müəllim həmin tədris ilinin sonundan Azərbaycana gələrək Azərbaycan Elmlər Akademiyasında yenidən elmi fəaliyyətini davam etdirmişdir.

Məktəbimizin yetirməsi olan alimlərdən biri də Əliyev Zöhrabdır. Keçmiş Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1978-ci ildə “Yüngül sənayedə kapital qoyuluşunun iqtisadi səmərəliliyinin yüksəldilməsi yolları” mövzusunda müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. Elm və Təhsil Mərkəzi “Təfəkkür” universitetində tədris işləri üzrə prorektor vəzifəsində işləyib. Əzizkənd məktəbinin yetişdirməsi olan Əliyev Şəmistan İlyas oğlu da dəyərli alimlərimizdəndir. Xalq Təsərrüfatı İnstitutunun “Sənayenin iqtisadiyyatı” fakültəsini bitirmişdir. Öz sahəsi üzrə müdafiə edərək alimlik dərəcəsi almışdır. Ayrı-ayrı idarə və təşkilatlarda rəis işləmişdir. Uzun müddət Xalq Təsərrüfatı İnstitutunda fakültə dekanı olmuşdur.



Onun elmi-pedaqoji fəaliyyəti 24 məqalədə, monoqrafiyada və elmi hesabatlarda öz əksini tapmışdır. Dünyasını dəyişib. Alllah rəhmət eləsin!

Məktəbimizin yetirmələrindən olan belə elm adamlarından biri də Həsənov Mirzə Həsən oğludur. Orta məktəbi medalla bitirib. 1959-cu ildə Azərbaycan Dövlət Politexnik İnstitutunun maşınqayırma texnologiyası, metalkəsən dəzgahlar və alətlər fakültəsinə qəbul olmuş və 1964-cü ildə institutu bitirmişdir. Gənclik illərindən elmi işə böyük həvəsi olmuşdur. Hal-hazırda Mingəçevir şəhərində yaşayır və orada fəaliyyət göstərən Politexnik İnstitutunda işləyir. Kafedra müdiridir, müştərək müəlliflərlə ali məktəblər üçün “Mexaniki ötürmələr”, “Maşın detalları və konstruksiya etmənin əsasları”, “Fasiləsiz nəqliyyat maşınları” dərsliklərini çap etdirmişdir. Neçə-neçə ali məktəb dərsliklərinin elmi redaktoru, bir metodiki işin, bir neçə fənn proqramlarının və silsilə təşkil edəcək qədər elmi məqalələrin müəllifidir. Hal-hazırda çalışdığı institutda elmi fəaliyyət göstərir.

Məktəbimizin yetişdirdiyi ayrı-ayrı xarici ölkələrin daxili işlər oqranlarında çalışan kadrlarımız da var. Nümunə olaraq eloğlumuz İsa İsmayılovu göstərmək olar. İsa İsmayılov 1980-ci ildə Bakı Milis məktəbini bitirmişdir. Rusiyaya gedərək 1981-ci ildən Rusiya Daxili İşlər Nazirliyi xəttində müxtəlif vəzifələrdə işləmişdir. 1998-ci ildə K.L.Xetaqurov adına Şimali Osetiya Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Bir sıra mühüm vəzifələrdə işləmişdir. Hal-hazırda Şimali Osetiya Rspublikası Vladiqafqaz şəhər Daxili işlər şöbəsinin Şimali-Qərb Bələdiyyə dairəsinin kriminal milis xidməti rəisi işləyir.

Bəli, əziz və hörmətli oxucular, belə-belə yetirmələri olan Əzizkənd məktəbi ilə fəxr etməyə dəyər. Fəxr etməyə dəyər ki, məktəbimiz filosof alim də yetirmişdir. Buna misal olaraq Əhmədov Əhməd Yolçu oğlunu göstərmək olar. O, fəlsəfədə yeni mövzu olan “Dincyanaşı yaşamaq siyasətinin beynəlxalq həyatın real qüvvəsinə çevrilməsi” mövzusunda müdafiə edərək alimlik dərəcəsi almışdır. Bir neçə institutda pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Əməyi həmişə yüksək qiymətləndirilib. Dünyasını dəyişib. Allah rəhmət eləsin!

Bu yazımda mən məktəbimizin yetirmələri olan alimlərin hamısının adını çəkmədim və buna görə inciməsinlər. Hələ məktəbimizin yetirmələri olan müəllimləri, həkimləri, mühəndisləri, kənd təsərrüfatı mütəxəssislərini demirəm. Ziyalı kadrlar yetirmək baxımından məktəbimiz heç bir bölgə məktəblərindən geri qalmır. Həmişə öncüldür və öncül olaraq qalacaq.

Əlbəttə, belə ziyalılar və alimlər özbaşına yetişmir. Keçmiş və bu günkü nailiyyətlərimiz üçün müəllimlərimiz can qoyublar. Gözlərinin ziyasını, ürəklərinin yağını əridiblər. elm, təhsil yanğısı ilə şagirdlərin yollarını işıqlandırıblar.

Böyük fəxrlə deyə bilərəm ki, hal-hazırda məktəbimizdə 53 nəfər yüksək ixtisaslı müəllim çalışır. Bunlara misal olaraq Şıxıyev Xaləddini, Məmmədov Hidayəti, Namazova Ayişəni, Eminova Sonanı, Vəliyeva Nailəni, Rzayev Xazeyni, Bayramova Səkinəni, Ömərova Sevinci, Nağıyeva Aytəni, Nağıyeva Zərifəni, Musayeva Məcbubəni, Hacıyeva Zemfiranı, Daşdəmirova Aygülü, Mehdiyeva Şəlaləni və Abdullayeva Sevinci göstərmək olar.

Bu gün məktəbimizə Culfayev Dilsuz İsmixan oğlu rəhbərlik edir. Onun rəhbərliyi nəticəsində məktəbimiz həmişə birincilər sırasındadır. Təlim-tərbiyənin bu günkü tələblərini və çəkiləcək qayğılarını bir müdrik kimi yerinə yetirir. Bunun nəticəsidir ki, hər il məktəbimizi bitirən 20-22 məzunun ən azı 8-10 nəfəri Gürcüstanın ali məktəblərinə qəbul olurlar.

Son beş ildə otuz beş nəfərdən çox məzunumuz gürcüdilli universitetlərdə təhsil alırlar. Misal üçün Nuriyeva Nuranə, Musayev Alı, Çaylıyeva Fidan, Ələsgərov Ehtiram, Rzayev Anar tibb fakültəsində, Nəsibov Gümrah, Zeynalov Rauf, Abdullayev Vüqar, Mustafayev Aqil hüquq fakültəsində, Nağıyev Təmkin tarix fakültəsində, Abdullayeva Ülviyyə riyaziyyat fakültəsində, Həsənov Kənan iqtisadiyyat fakültəsində, Namazova Ləman, Ömərov Elvin, Çaylıyeva Nuri, Bayramov İsa isə ingilis dili fakültəsində oxuyurlar.

Heç şübhəsiz ki, belə nailiyyətlərin arxasında fədakar müəllim əməyi və rəhbərliyin qayğısı-dayağıdır. Bu nailiyyətlər üçün gəlin bir yerdə deyək: “90 illik yubileyin mübarək, əziz məktəbimiz! Sən bizim mənəvi atamız, müqəddəs elm ocağımızsan. Qədrini bilənləri min yaşasın. Yetişdirmələrinin səsi, xoş sədası-sorağı daha da uzaqlardan gəlsin. Elm, bilik ənginliklərinə yol açsınlar və bundan sənin üzün gülsün, həmişə qürrələnib şadlanasan!

**Paşa Nağıoğlu,**
***Əzizkənd ümumi məktəbinin müəllimi.***

# QUYU

## (nağılvarı)

Dünyanın müxtəlif məlumat kitablarında özünə yer əyləmiş "Babil qülləsi" əfsanəsi Süsən-Sünbüldə də məşhurdur: əfsanəyə görə, Babil əhalisi göylərin yeddinci qatına qədər ucalan bir qüllə tikmək qərarına gəlir. İnşaatçıların hamısı da bir dildə danışırmış. Qüllənin tikintisindən narazı qalaraq qəzəblənən ucalardan uca Yaradan adamların hərəsinə bir dil verir. Adamlar da bir-birlərini başa düşmədiklərindən qüllənin tikintisi dayanır və hərə də bir tərəfə dağılır... Amma dağılıb çöldə-çayırda məskunlaşanlar dincmi dayanardılar? Və onlar indi də başlayırlar dərin-dərin quyular qazmağa. Guya bu dərin-dərin quyulara görə ("Şahdəniz" misallı quyulara baxmayın: axı onlar su quyuları deyil, neft quyularıdır) Yaradan onları cəzalandırmayacaq...

Əlbəttə, quyuları əvvəlcə özlərinə, sonralar özgələrə qazmağa başladılar. Qədim dövr üçün bir qədər qəribə olsa da özgəyə qazdıqları quyulara özləri düşürdülər. Bəs necə eləsinlər ki, özgəyə qazdıqları quyulara özləri yox, elə özgələr yumbalansınlar? Bax, məna da elə burasındadır.

Hazırda Süsən-Sünbüldə quyu qazmaq dəb şəklini alıb. Burasını da deyim ki, qədimlərdə olduğutək, buralarda da quyuların dərinliyi hələ də qulacla ölçülür. Nağıllarda quyunun dərinliyi qırx qulac olaraq göstərilirmi? Məsələn, Mirzə Halaypozan Xanəxərab dad çəkir ki, bəs deməzsənmi, Mirzə Tanrıtanımaz ona quyu qazıb və o quyunun dərinliyi də qırx qulacı çoxdan keçib. Belə çıxır ki, qırx qulacdan artıq quyu qazmaq quyuçuluq qaydalarına ziddir. Bu min-



valla Mirzə Mikrob Mirzə Virusa, Mirzə Virus da Mirzələr Mirzəsinə qırx qulacdan artıq quyu qazır. Amma Mirzə X. Gözəldağlı həmin köhnə dəbli mahnını oxumağındadır:

*Siyah zülfü dal gərdəndə bir qulac...*

Buna da Filan-Fəsman mirzəsinin qəzəbi aşırdaşır ki, bəs deməzsənmi, bu yerdə qulac artıq uzunluq ölçüsünə yox, onun sevgilisinin siyah zülflərinə işarədir.

...Mirzə Qələm Praqadakı tanınmış memarlıq abidəsi olan Qızıl Quyu Evi (vaxtilə imperator II Rudolfa məxsus) haqqında "tanıdım" yazmışdı. Süsən-Sünbüldə elə hay-həşir qaldırdılar ki, ayə, "əcnəbi" quyular bizim qazdığımız quyulardan bu qədərmi artıqdır, yəni? Bəlkə "özgə" adıyla elə özümüzə qazdığımız quyuları durub indi də "əcnəbilərə" qazaq? Burası da var ki, bizim quyular da əslində başqa aləmlərə – eynən nağıllardakıtək – açılan qapılar anlamına gəlir. Müxtəsəri, Mirzə Qərənfilə (Sabit Rəhmana min rəhmət) qazılan quyu: işdən qovulmağı, üzüaşağı üzüqara gəzməyi və s. – guya ona edilən yaxşılıqdan başqa bir şey deyilmiş. Yəni bir də gördün kəndirini kəsib saldığımız quyudan ya Ağ qoçun belində, ya da Zümrüd quşunun qanadları üstündə elə bir nazəninlə qayıtdı ki, Süsən-Sünbülün də olan-qalan ağlını apardı getdi. Axı quyuların "qoruyucu ruh"u haqqında ceyranbatan cildlər yazılıb. Quyu gərək elə silindir şəklindəmi ola? Sən qazmağında ol!..

**P.S.**

***"Az gedib, üz gedib, dərə-təpə düz gedib, bir quyuya rast gəldilər. Bildilər ki, dev bu quyuya girib"...Nağıllarımızda belədir.***

***...Amma devlərin dalınca gedənlərin çoxunu yanıb öz külündən bir də yaranan Zümrüd quşu ağ günlərə çıxartmadımı?***

***Unudulmaz İsi Məlikzadənin "Quyu" povestinin qəhrəmanı Umud da demirdimi ki, guya quyu qazmaq kişi sənəti deyilmiş! Bəs elə isə Mirzə Halaypozan Xanəxərab, Mirzə Simon Simonişvili, Mirzə Armen Ayvazyan bu "sənət"dən niyə əl çəkmirlər?***

***...amma Mirzə Qələmin canı-gözü, sözü-söhbəti uzaq Zəmzəm quyusudur: zəvvarların susuzluğunu söndürən, azan oxunanda daha da aydınlaşan Zəmzəm!***

***..."dərin olan quyu deyil, qısa olan ipdir" – bunu da Konfutsi demişdi.***

**İbrahimxəlil**

# Azərbaycanlıların gürcü gardaşı - Zezva



Gürcü-Azərbaycan ədəbi münasibətlərində və onun inkişafında tarixi rol oynayan insanlar çoxdur. Belə şəxsiyyətlərdən biri də Zezva Medulaşvilidir. O , bütün həyatını iki gardaş xalqın mənəviyyatının bir-birinə yaxınlaşmasına, onların ədəbi həyatının zənginləşməsinə həsr etmişdir. Artıq Zezva Medulaşvilinin 75 yaşı tamam olur. Buna baxmayarag, o, müasir gürcü-Azərbaycan yazıçı və şairlərin yaradıcılığını tədqiq edir və onları bir-biri ilə tanış etmək əzmi ilə çalışır və yaşayır.

Z. Medulaşvili 1940- cı ildə Gürcaani rayonunda anadan olmuşdur. Hələ məktəb illərində ədəbiyyata olan marağı onun gələcək həyat yolunu təyin etmişdir. Bu yol onu 1957 –ci ildə İ. Cavaxişvili adina Tbilisi Dövlət Universitetinin şərqşünasliq fakultəsinə gətirmişdir. 1962-ci ildə ali məktəbi müvəffəqiyyətlə bitirən Zezva elə həmin universitetdə çalışmağa başlamış və şərq şairlərinin yaradıcılığını və onun incilərini tələbələrə oxuduğu muhazirələrində çatdırmağa çalışmışdır. Şərq ədəbiyyatının vurğunu olan Zezva Medulaşvili təhsilini aspiranturada davam etdirmiş və eyni zamanda Qafqaz dilləri fakültəsində elmi-tədqiqat işləri ilə də məşğul olmuşdur. O, ilk dəfə tərcümə sənətinə 1965-ci ildə gəlmişdir. Bu dövrdən Zezva Medulaşvilinin şərq dillərinin tərcuməçisi və şərq ədəbiyatının təbliğatcisi kimi fəaliyyətə başlamışdır. 1965-ci ildə o, Məhəmməd Füzulinin "Şikayətnamə" əsərini tərcümə etmişdir. 1974-ci ildə Zezva Medulaşvili Gürcüstan Yazıçılar İttifaqı nəzdində Tərcümə Mərkəzində baş elmi redaktor kimi fəaliyyətə başlayır. Bu dövrdə Z. Medulaşvili məşhur Azərbaycan şairlərinin əsərlərini gürcü dilinə tərcümə edib oxucuların ixtiyarına vermişdir. Z. Medulaşvilinin söylədiyi kimi, bu illər hər iki qardaş xalqın ədəbiyyat tarixinin yüksəliş illəri idi. O, Aşıq Ələsgərin şeirlərini, Molla Pənah Vaqifin 12 şeirini tərcümə etmişdir. Vaqif yaradıcılığının, onun sevgi-məhəbbət lirikasinin təsiri altında, Z. Medulaşvili "M.P. Vaqif haqqında məktub" adlı elmi iş yazmışdır . Gürcü ədəbi jurnallarında cap olunan bu yazı bir çox gürcü ədiblərinin diqqətini cəlb etmiş və Vaqif yaradıcılıgı ilə məşğul olmağa əsas vermişdir . Onun Səməd Vurğunun tərcümə etdiyi əsərləri silsiləsində yalnız bir „Azərbaycan" şeiri gürcü dilində 8 dəfə cap olunmuşdur. Görkəmli gürcü şərqşünası Elizbar Cavelidze Məhəmməd Füzuli haqqında elmi monaqrafiya yazmışdır. Burada Füzuli yaradıcılığının sirləri, onun qəzəllərinin mənəvi dəyərləri Z. Medulaşvili tərəfindən tərcümə olunmuş və acıqlanmışdır. Azərbaycan xalqının epos sənətinin əvəzsiz nümunəsi olan "Koroğlu" dastanı Z. Medulaşvili tərəfindən təmənnasız olaraq gürcü dilinə tərcuma olunmuşdur. O yeganə insandır ki, bu dastanı hər iki dildə əzbər bilir. Z. Medulaşvili "Qurani-Kərim"i orijinalda oxuyub, onun surələrinin mənasını açmışdır ki, bu haqda onun şəxsi humanist fikirləri mövcuddur. Şərq yazıçı və şairlərinin yaradıcılığını təhlil edib və onun həyati mənalarını açmaqla bərabər, onun tərcümə yaradıcılığında Azərbacan dili əsas və mühüm yer tutur. Z. Me-dulaşvili xalq yaradıcılığına da böyük diqqət verir. Onun tərcüməsində Azərbaycan xalq nağılları, Azərbaycan yazıçılarının povest və hekayələri gürcü dilində işıq üzü görmüşdür. O, İsa Hüseyinovun, İsi Məlikzadənin, Fərman Kərimzadənin, Vilayət Rüstəmzadənin, Süleyman Rüstəmin, Anarın, Rəsul Rzanın və başqa görkəmli Azərbaycan yazıçılarının və şairlərinin əsərlərini tərcümə etmişdir. Gürcü ədəbiyyatşünasların böyük diqqətinə səbəb olan Məmməd Arazın "Vəsiyyət" adlı tarixi kitabı məhz elə Z. Medulaşvili tərəfindən tərcümə olunmuşdur. Onun tərcüməçilik fəaliyyətində fəth etdiyi mühüm zirvələrdən biri də "1001 bayatı" kitabıdır. O məşhur klassiklərin əsərlərini tərcümə etməklə onların yaradıcılıq dünyasının üzvü olur və bununla bu dünyanı sıravi oxuculara təqdim edir. Z. Medulaşvili Azərbaycan xalq yaradıcılığının nümunələrini, aşıq yaradıcılığını, tapmaca və atalar sözlərini tərcümə edib Azərbaycan ruhunu gürcü oxucularına çatdırmağa nail olmuşdur. O, tacik, özbək, türkmən, fars, türk dillərini mükəmməl bilir. Zezva Medulaşvilinin yarım əsrlik tarixi olan tərcüməçilik fəaliyyəti nəticəsində onun bu sahədə məktəbi formalaşmışdır ki, bu məktəbin davamçıları İmir Məmmədli, Mirzə Maşov, Oqtay Kazımov kimi tanınmış ədiblərdir. Z.Medulaşvili 2009-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Üzvlük vəsiqəsini Birliyin sədri Anar Azərbaycanda keçirilən beynəlxalq ədəbi forumda təntənəli surətdə ona təqdim etmişdir. Z.Medulaşvili ilə şəxsən tanış olan Azərbaycanın Xalq şairi, Azərbaycan Aşıqlar Birliyinin sədri Zəlimxan Yaqub öz şeirlərindən birini ona həsr etmişdir. O, bir çox müsabiqə qalibi olub, dövlət mükafatlarına layiq görülmüşdür. Z. Medulaşvili Azərbaycan Respublikasının Nəcəf Nəcəfov, Zahid Xəlilov adına mükafatların sahibidir. Z. Medulaşvilinin tərcümə yaradıcılığından başqa, Şərq dilləri də bu sırada mühüm yer tutur. O, Gürcüstanda türkmən dilindən gürcü dilinə tərcümə edən nadir şəxslərdən biridir. Bu yaxınlarda Türkmənistanda kecirilən türkmən-gürcü bədii əlaqələr festivalında Z.Medulaşvili Türkmənistanın XVIII əsrin görkəmli şairi və mütəfəkkiri Məhtumqulu yaradıcılığının öyrənilməsində və onun əsərlərinin gürcü dilinə tərcüməsində böyük xidmətlərinə görə Türkmənistan Prezidentinin fərmanı ilə bu dövlətin mədəniyyət sahəsində ən baş mükafatı olan, Məhtumqulu adına medala layiq görülmüşdür.

Z.Medulaşvili "Saba" və "Saquramo" mükafatlarını almışdır. O, ədəbiyyat sahəsində İvane Maçabeli adına beynəlxalq mükafata layiq görülmüşdür. Ona Gürcüstanın "əməkdar mədəniyyət işçisi", "Gürcüstan mədəniyyətinin təbliğatçısı" kimi fəxri adlar verilmişdir. O həm də Dmanisi rayonunun fəxri sakinidir. Onun tərcümə yaradıcılığı iki xalqın ədəbiyyatının bir-birinə qovuşmasında böyük rol oynamışdır. Obrazlı desək, əgər Gürcüstanı Azərbaycanla birləşdirən Qırmızı körpüdürsə, Gürcüstan və Azərbaycan ədibləri arasındakı körpü məhz son 50 il ərzində Zezva Medulaşvili olmuşdur. Onun əməyinin bu cür qiymətləndirilməsində Gürcüstan və Azərbaycan ədiblərinin haqqı və əsası vardır. Elə bu səbəbdən 75 yaşı və ədəbi yaradıcılığının 50 ili tamam olan Zezva Medulaşvilinin yubiley tarixini geyd etmək bizim hamımızın borcudur. Z. Medulaşvili Gürcüstan Prezidentinin Fərmanına əsasən "Ləyaqət" ordeni ilə taltif olunmuşdur. Bütün bunlara baxmayaraq Z.Medulaşvili qeyd edir ki, ən baş mükafatı tərcümə etdiyi əsərlərin gürcü və Azərbaycan xalqının ürəyinə apardığı açıq yollardır. Bu isə mənim həyatımın mənasıdır.

**Qəhrəman Musayev**
***Heydər Əliyev adına Gürcü-Azəbaycan Dostluq Cəmiyyətinin direktoru***

# Gözəlliyi görməyi bacaran insan



Hələ uşaqlıq illərindən həmyaşıdlarından seçilmişdi. Müəllimləri xüsusi diqqət yetirir, onun gələcəkdə görkəmli bir şəxsiyyət kimi yetişəcəyini əvvəlcədən görürdülər. O, müəllimlərinə yardım edir, yoldaşlarına əsl dost kimi dəstək olurdu. Tərcümeyi-halı, taleyi və həyatı daha çox onun yaradıcılığında öz əksini tapır. Mülkədar Nadir öz istedad və qabiliyyətini əsirgəmədən yaradıcılığında müxtəlif mövzulara müraciət edir. O, öz əsərlərində ən adi həyat hadisələrini belə dünya səviyyəsinə qaldırır, ona ən yüksən zirvədən baxa bilir. Dünənimizdən ibrət dərsi almaq, bu günümüzün ab-havası ilə yaşamaq, sabahımızın mənzərəsini açıq-aydın görmək, amalımızı müəyyən etmək üçün Mülkədar Nadir poeziyası ən etibarlı və ağıllı bələdçidir. Çağdaş Azərbaycan poeziyasının gözəl qələm sahiblərindən biri olan Mülkədar Nadirin hər yeni əsəri bir hadisəyə çevrilir. Onun yaradıcılığında ən yaxşı cəhətlərdən biri şairin xalq yaradıcılığından yaradıcı şəkildə bəhrələnməyi bacarmasıdır. Mülkədar Nadir əsərlərində xalqın taleyində baş verən şirinli-acılı hadisələrin bədii təsvirini verir. Oxucuları onun aydın üslubu və yazı manerasını duya bilir. Mülkədar Nadirlə görüşlərdə onun çıxışları əsl toy, bayrama çevrilir, dinləyənlərin üzünə xoş bir təbəssüm qonur. Bütün bunlar onun yazılarının həyatiliyi, səmimiliyi ilə əlaqədardır. Onun çap olunan məzmunlu yazıları hər dəfə oxusam da, onların hamısını bir yerdə kitab şəklində görmək məni çox sevindirdi. Sanki dünyanın bütün qiymətli xəzinələrini bu kitaba toplamış və canından çox sevdiyi xalqına ərmağan etmişdi. "Yaxşılardan seç götür" adlı kitabı mənə elə gəlir ki, dünyanın ən əvəz olunmaz təbrikçisidir.

Həmişə reklamdan uzaq duran Mülkədar Nadirə bir gün belə bir sual verdim. Nədən reklamı sevmirsiniz, reklamdan qaçırsınız? Cavab belə oldu: Əgər bir şairin və ya yazıçının yazdıqları dəyərli və yadda qalandırsa, az da olsa, oxucuları varsa, onun reklama heç də ehtiyacı yoxdur. Mənə elə gəlir ki, onun hər yazısı bir reklam olur. Onun yazdıqlarının gücü onu asanlıqla təqdim edir və tanıdırır. Mülkədar Nadir əsərləri ilə insanlara sözün əsl mənasında, həyat dərsi verir, soykökümüzə, adət-ənənələrimizə, dilimizə qiymət verir, dəyərlərimizə sahib çıxır. Onun böyüklərə qarşı ehtiram oyadan sadəliyi, təvazökarlığı təbliğ edən gözəl əsərləri gənclər tərəfindən sevə-sevə oxunur. Qloballaşan dünyamızda baş verənləri elə gözəl təhlil edir ki, oxuyan hər kəs böyük zövq alır. "Gəncləri anlamaq çətindir", deyir yaşlı nəslin nümayəndələri. Mülkədar Nadir isə belə düşünmür. O, gənclərin nəbzini tuta bilir.

Həm yazar, həm şair Mülkədar Nadir haqqında yazmaq çətindir. Ancaq onun şeirlərindən danışmasaq böyük qəbahət olar. Çünki onun yazdıqlarının hər cümləsi başdan ayağa fəzilət təcəssümüdür. "Şair – vətəninin dilidir" deyirdi dahi şairimiz Bəxtiyar Vahabzadə. Bu missiyanı ləyaqətlə yerinə yetirən Mülkədar Nadir mükəmməl əsərləri ilə xalqımıza başucalığı və şərəf-şan gətirir. Bax, buna görə də, Mülkədar Nadirin dostları, istəyənləri, adını ürəyinin başında gəzdirənləri bu qədər çoxdur. O, nə qədər millidirsə, xalqına, torpağına nə qədər bağlıdırsa, bir o qədər bəşəridir. Onun zəngin yaradıcılığı Azərbaycan şeirinə yeni təravət və gözəllik gətirdi.

Mülkədar Nadirdə bir xüsusiyyət də var ki, baxdığı hər yerdə ancaq gözəllik axtarır. Adi bir çöl-biyabanda olsa belə, oranı o qədər gözəl təsvir edir ki, sanki gülüstandır. Bir daşın dibində balaca bir çiçək görərsə, onun haqqında ürək dolusu danışıb bir dastana çevirir, deyirsən dünyanın ən gözəl yeri elə buradır. Çünki onun qəlbi belə görür. "Allahın yaratdığı hər yer gözəldir" deyir. Pisin içində yaxşını axtarıb tapa bilir. O, həm də insan sərrafıdır. Keçmişdə belə insanlara ərmiş deyərdilər, indiki dövrdə altıncı hissi güclü insan deyirlər. Yəni Allah ona elə ağıl verib ki, kiminsə tutduğu işindən asılı olmayaraq, sonunu, hara getdiyini görür. Bu həm də onun həyat təcrübəsindən irəli gəlir. Ətrafdakı gənclər bir iş görəndə həmişə ondan məsləhət alırlar, bilirlər ki, doğru yol göstərəcək, gözəl nəsihətlər verəcək.

Mülkədar Nadir yazılarında sübut etməyə çalışır ki, həyatda hər kəs öz əkdiyini biçəcəkdir. Onun həyata baxışı tamam fərqlidir. Özünü tam ifadə edə bilir. Çünki onun həyatda öz yolu, öz cığırı var. "Qadın Yaradanın yardımçısıdır" deyir Mülkədar Nadir. Çünki qadına dəyər verməyi bacarır. Bunun sübutu olaraq demək istəyirəm ki, həyat yoldaşına olan sevgi-məhəbbəti, türk ailə modelini qoruyub saxlamaq bacarığı bir çoxlarına nümunədir. O, həmişə qadını yüksək insani keyfiyyətlərə malik ülvi varlıq kimi təsvir edir. Onun düşüncəsində qadın hörmət və məhəbbətə layiqdir. Bütün bunlara görə də Mülkədar Nadirin oxucuları kifayət qədər çoxdur.

**Günel Mahmudqızı**

# MÜSƏLMANIN QANI HALALDIR?

**Fransız “Molla Nəsrddin”i qələm və silahın savaşına qurban gedib?**

Fransada elan olunmuş üç günlük milli matəm növbəti dəfə sübut etdi ki, terrorun əli çox uzundur və onu milli, dini, coğrafi sərhədlərə ayıranda bir gün bədəlini özün ödəməli olursan. Beynəlxalq koalisiya qüvvələrinin 13 illik ayaq səsləri Əfqanıstandan hələ tam kəsilməyib və anti-Taliban hərbi əməliyyatlarının qanı əfqan torpağında tam qurumayıb,lakin budur, əli silahlı üç şəxs Avropanın tən ortasında peyda olaraq günün günorta çağı çox sərbəstliklə qanlı terror aktını həyata keçirir,on iki nəfər jurnalisti, iki polis əməkdaşını qətlə yetirir və yenidən dünyanı 11 sentyabr hadisələrinin ictimai şokuna qərq edir. Vaxtilə inqilab kabusunun dolaşdığı Parisin küçələrində hökm sürən nizamı pozanlar yüksək rifah və təhlükəsizlik şəraitində yaşayan insanları şəhəri diri gözlü açmağa vadar edirlər.

Doğrudanmı, İŞİD artıq qapını döymədən və “əcəl zəngi”ni basmadan hər yerə ayaq aça bilir və döyüş meydanını ofislərə, yaşayış məskənlərinə dəyişməyi bacarır? Yaxud necə olur ki, həftəlik bir nəşrin öz işini planladığı pik saat,deməli, redaksiya heyətinin tam tərkibdə toplaşdığı bir zaman başqa biriləri üçün də əlverişli əməliyyat vaxtına çevrilir və sovet generalı Kalaşnikov avtomatını yaxın Şərqdən gətirib indi də Fransada bir jurnalın komandasını qanına qəltanda istifadə edirlər? Cinayət yerinə bələd olmadan dəqiq koordinat üzrə necə hərəkət olunub,,yaxud daxili satqınların yardımından istifadə edilibmi,bütün bunlar istintaqın işidir,amma baş vermiş faciənin qlobal nəticələrini onun kriminal detalları ilə pərdələmək mümkün deyil.




“Karikaturalara görə intiqam” aldıqlarını bağıraraq sakit və kimsəsiz küçədə kiminsə kameralarına düşməyə ümid bəsləyən maskalı muzdlular az qala nümayişkəranə şəkildə islamı və müsəlmanları hədəfə çevirdilər. Düzdür, qəddarlıqla qətlə yetirilən insanlarla həmrəyliyini nümayiş etdirməyə çıxan minlərlə fransalı, Berlin sakini, yaxud Londonlu etirazçılar hələ ki,yalnız söz azadlığına qarşı yönələn barbarlığı pisləməklə, ölənlərin xatirəsini anmaqla məhdudlaşıblar,amma qarşıdakı günlərdə bütün Avropada “əcinnə ovu”na çıxılacağı, reaksionist və qatı dini əqidə daşıyacalarının tapılıb cəzalandırılacağına şübhə yeri yoxdur. Onsuz da son həftələr Almaniyadan tutmuş İsveçədək, artan müsəlman sayına qarşı kəskin milli dirəniş açıq meydanlara çıxmışdı, indi budur, hər cür antimiqrant qanunvericliyinə, təhlükəsizlik tədbirlərinə qərar verməsk üçün ortada ən azı 12 cəsəd var. Kütlə ilə bir sırada addımlayan prezident Olandın milli qəzəbi sakitləşdirmək üçün ona müsəlmanların qanı halal edilib. O, hazırda 21-ci əsrin Napoleonu kimi dünya yürüşlərinə çıxmaq üçün beynəlxalq tərəfdaşları ilə gizli sövdələşməyə başlaya bilər.

Biz qanlı cinayəti hakimiyyətə bağlamaq istəyən, onu konspirativ nəzəriyyələrlə əlaqələndirib BMT-də Fələstinə səs verən Fransa hökumətinin Reyxstaqı yandıran alman faşistləri ilə eyni cür hərəkət etdikləri barəsindəki versiyalara qatılmaq istəmirik. Onsuz da qəsd nəzəriyyələri həmişə qüvvədə olub, amma başıpozuq iki müsəlman gəncinin əlinə sialh verənlərin deyil, qurban gedən dinin və xalqların taleyi bizim üçün daha önəmlidir.

Cinayətdə şübhəli bilinən Səid və Şərif qardaşlarının maskalı sifətləri arxasında hansı mərkəzlərin dayandığını təyin etmək Roma papasına güllə atan Əli Ağcaya fitva verənləri tapmaq qədər çətindir. Hər halda terror qruplarının rəhbərləri müxtəlif kəşfiyyat mərkəzlərinə bağlıdır və onlar artıq neçənci dəfədir ki,nəzarətdən çıxıb silahı ağalarına qarşı çevirirlər.

Əslində “Şarli Hebdo”nun satirası bütün dövrlərdə dözülməz olub. Kraliça Mariya Antuanetta zamanında az qala müqəddəslik qazanmış vərəqələrdə saray əyanlarının həyatı gülüş hədəfinə çevrilir və kəskin qınanırdı,amma xalqın qəbul etdiyi ədəbi janrlar öldürücü tənqidi daha təsirli və qəbuledən formaya salmaqda ən yaxşı vasitə idi. İnqilab zamanı da şəkilli illüstrasiyaların geniş oxucu kütləsi vardı. Hakimiyyətdə bir-birini əvəz edən müxtəlif siyasi qüvvələr və şəxsiyyətlərin surəti isə heç bir zaman naşirlərin qələmindən kənarda qalmayıb.

Həmin ənənələrə sadiq olan müasir Avropa nəşrləri söz azadlığını müqəddəs dəyərə çevirərək heç kəsin onlar üzərində tabu yarada bilməyəcəyinə arxayın bir şəkildə yollarını davam etdiriblər.

Onların hədəflərində nəinki müqəddəs dini liderlər, eləcə də hazırki dövlət başçıları, bankirlər, yaxud siyasət adamları olub. Ona görə də təkcə müsəlman cəmiyyətləri ilə deyil, başqa milli qruplarla, yaxud fərdi adamlarla ixtilaflar keçmiş redaktorların işdən getməsilə, yaxud bütün kollektiv üzvlərinin imzalarını gizlətmələri ilə nəticələnib. Antisemit fəaliyyətinə görə cəzalandırılan sabiq rəhbərlərin mövcudluğu ümumən mətbuat azadlığının sərhədləri haqda orada hər zaman antoqonist baxışların olduğunu təsdiqləyir.

Əcəba ,fransız “Molla Nəsrəddi”ni həqiqətənmi öz qətliamına doğru az qala şüurlu gəlib və Monteskyönün ardıcılları qələmlərinin haqqını indi ağır ödəməli olublar?

Aparıcı televiziyalarda yayımlanan kadrlarda diqqətimi daha çox cəlb edən səhnə silahın qələmə qarşı olması idi. Bu yerdə bütün dünyada ayağa qalxan insanlara islamın sülhpərvərliyindən, onun dincliyə və hüzura xidmət etdiyindən danışmaq əbəs görünər. Ən dəhşətlisi isə,indi artıq heç kəsin inkar edə bilməyəcəyi islamın demokratiyaya, avropalıların mədəniyyətinə və mövcudluğuna təhlükə kimi təqdim olunmasıdır. Xatırladaq ki, 63 milyonluq əhalisi olan Dümanın vətənində 5.4 milyonluq-yəni, 8.5 fazilik islam xaqları yaşayır.

Amma əvəzində elə bir müsəlman dini lideri yoxdur ki,katolik mərkəzinin funksiyanı yerinə yetirib bütün islam ümmətini öz arxasınca aparsın.Sayları 1.7 milyardı keçən, rəsulu Məhəmməd olan Allahın bəndələri müxtəlif siyasi rejimlərin, cərəyanların, məzhəblərin,alimlərin, seyidlərin, ayətullahların, müştehidlərin fitvasında və sərəncamında yetim qalıb. Hamısının getdiyi məscid bir,qulluq etdikləri məqsəd ayrıdır. Qazandıqları hacılıq statusu yüksək mənəvi mərtəbədən daha çox sosial imtiyaz və cəmiyyət iyerarxiyasında mühüm pilləkəndən başqa bir şey deyil. Məgər Allah vahiddirsə,onun yaratdığı din insanları niyə bu kökə qoyub?

Ona görə də Parisdə axan 12 karikaturaçının qanı milyonlarla ərəbin qətlindən hasil olan mayedən daha müqəddəs tutulur. Xristianların dini lidei İsa Məsihliyə gedən yolda bir dəfə çarmıxa çəklibsə,islam etiqadı yolunda 15 əsrdir ki, edamlar, kütləvi qırğınlar bitib-tükənmək bilmir. Dar ağacına mismarlanan müsəlmanın ağrısı və əzabı isə onları peyğəmbərə çevirmir. Əksinə, yeni-yeni savaşların baş səbəbinə çevrlilir.

İndi mübarizə aparsalar da Qərbin azadlığı bundan ibarətdir. Onlar sözün qarşısında yasaq tanımaq istəmirlər. Din milyardlarla insanın inanc yeri, mənəvi istinadgahı ola bilər,amma fransız şüurunda bu totalitar ideologiyalardan başqa bir şey deyil. Vaxtilə marksistlərin dediyi kimi, ən yaxşı halda tiryəkdir. Belə olan halda hər şeyin yol verilənliyi bir çoxlarına riyakarlıq kimi görünə bilər və kimsə iddia edər ki,məgər Hitleri iblis elan edib onun törətdiyi Xolokostu tanımayanlara qarşı nə üçün cəza kəsirlər? Bəlkə İran iddiasında haqlıdır ki, Adolf düz edib və söhbət az sayda yəhudinin qətli ilə İsrail dövlətinin yaradılmasına zəmin hazırlamaqdan gedib. Lakin cavabın heç bir əhəmiyyəti yoxdur. Bütün hallarda qəzetlərin təhqir hüququ, başqasının sitayiş etdiyi simvollara əl uzatmaq haqqını Avropa qanunvericiliyi tanıyıb.Bu hökmdür və onunla hesablaşmağa hər kəs məhkumdur.

Razılaşmırsan, istəmirsən o şəkilləri görəsən, oxuma, baxma, yan keç, fərqli olduğunu sübuta yetir.

Maraqlıdır ki, xüsusilə də keçmiş sovet cəmiyyətləri, ateist keçmişinə dayanaraq xatırladır ki, bolşeviklər bütün kilsələri və məscidləri yandırmalarına, din xadimlərini qətlə yetirmələrinə baxmayaraq, müqəddəs dəyərləri çirkləndirməyə, onu iyrənc simada təqdim etməyə heç vaxt çalışmayıb. Amma elə bu kifayət edib ki, Allahsız bir cəmiyyət qurmaq istəyən kommunistlər dindən uzaq dursunlar. Hətta o mənəvi kompleks indi də adamların canından çıxmayıb. “Molla Nəsrəddin”in ironiyası və acı satirasını unuda bilməyən müasir insanımızın Quranın sətirləri arasında cin axtarmasını görmək o qədər də çətin deyil. Halbuki Mirzə Cəlilin davamçısı olmaq istəyən “Şarli”nin redaktoru,indi hüznlə dəfn edilən Stefan Şarbonye üçün milyonlarla müsəlmanın qəzəbinə səbəb olacaq addımlardan özünü heç vaxt kənarda saxlamayıb.

Məgər Salman Rüşdinin “Şeytanın ayələri” müsəlmanların gözündə daha yüngül cinayət idi? İranın dini lideri ingilis yazıçının ölümünə fərman vermişdi. Bununla belə,Britaniya kraliçası öz növbəsində azadlıq ideallarını tərənnüm edən pakistanlı qələm adamını ən yüksək ordenlə təltif edərək, onu güclü şəraitdə qoruyub sağlığını təmin etdilər. Nə yaxşı ki,onu öldürməyiblər. Çünki üstündən görün nə qədər keçib, amma Salmanın kitabı Quranın heç bir səhifəsini belə yerindən tərpətməyib.

İndi təkcə söz azadlığı yox, həm də müsəlmanlar Kalaşnikov avtomatı ilə susdurulub. Dözümsüzlük, cihad ruhu, küçələrdə qurban adına kəsilən heyvan başlarının az qala milli – dini yaşantıya çevrilməsi, mədəniyyətlərarası uyuşmazlıq,xristianlıq ruhu ilə islamın kəskin ziddiyətləri dünyanın baş ağrısına dönüb.

11 sentyabr yeni dünya nizamının əsas planına çevrildiyi kimi, indi də Şərq – Qərb qarşıdırmasının dərinləşəcəyi qaçılmazdır.

İslam ölkələrinin yenidən fəthi planını çox gözləmək lazım gəlməyəcək. Fransa prezidenti bu yaxınlarda Liviyaya təzədən daxil olmağın zəririliyini göstərmişdi. Bəşər Əsədin hakimiyyətdən getməsinə dair fərman bu yaxınlarda elan olunacaq.

Ukrayna münaqişəsinin arxa plana keçəcəyini düşünməyin. Düzdür, Oland Rusiya əleyhinə sanksiyaları bundan artıq genişləndirməyin Avropaya baha başa gələcəyini bəyan etmişdi. Ancaq əsas hədəf İrak olacaq.

Müttəfiqlərin Yaxın Şərqə hücumu 21-ci əsrin böyük müharibələrinin anonsunu verməyə biza imkan yaradır. Əl-Bağdaninin başını Üsəma Bin Laden kimi yerə qoyandan sonra Suriyanı yenidən təşkil edəcəklər.

**Növbə digər ərəb rejimlərinindir.**

Peyğəmbər isə onun kitabı üstündə oturan səud milyarderlərini də, körfəz şeyxlərini də əslində əli silahlı cəlladlar kimi dərindən seyr etməklə məşğuldur. 7-ci əsrdə dünyaya zühur edərkən hər cür təhqirə,pisliyə,ədalətsizliyə məruz qalan Allah elçisi üstündən əsrlər keçəndən sonra onun adını qorumaq üçün insan qanı tökənlərlə mübarizə qarşısındadır. Hətta keçmiş məhbus, indi ölkəsinin bütün müsəlmanlarının heysiyyatı üzərindən taxtaca doğru addımlayan Xodorkovskinin çağırışı ilə bütün dünya mediası karikaturalar sərgisinə dönsə də, bundan Məhəmməd peyğəmbərin ilahi missiyası heç bir ziyan çəkməyəcək.Əsas Quranı terrorçuların əlindən almaqdır.Belə qüvvəni daxildə yetişdirə bilməyən xalqlar isə xaricdən xilaskar gözləməyə məhkumdurlar.

Əgər qələm müqəddəsdirsə, qoy o silaha qalib gəlsin!

**Zahid Oruc**
***Azərbaycan Respublikası Milli Məclisinin üzvü***

# Fransada terror

Yanvarın 7-də Fransada satirik jurnala silahlı basqın edən terrorçuların 12 nəfəri qətlə yetirəndən sonra aradan çıxdılar. Hadisədən 2 gün sonra təhlükəsizlik qüvvələri Parisin şimal-şərqində və mərkəzdən cənubi-şərqə dinc insanları girov götürən şübhəliləri alıb. Danışıqlar nəticəsiz qalandan sonra hər 2 yerdə hücuma kecən polis 3 şübhəli şəxsi öldürüb. Atışma zamanı 4 girov götürülmüş şəxs də həlak olub.

## Avropa liderləri sükut yürüşündə

Yanvarın 11-də Parisdə keçirilən Birlik yürüşündə 2,5 milyon adamın iştirak etdiyi bildirilir. Yürüş-mitinqin Fransa tarixinin ən izdihamlı kütləvi toplantısı olduğu deyilir. Yürüşə Almaniya, Böyük Britaniya, İtaliya, Türkiyə, Ukrayna və sair dövlətlərin rəhbərləri də qoşularaq radikal islamçıların Şarl Hebdo satirik jurnalına hücumunu pisləyiblər.

Bu mərasimə Ərəb Liqasının rəhbərləri, Afrikanın müsəlman liderləri və Türkiyənin baş naziri Əhməd Davudoğlu da qatılıb.

Gün ərzində Fransa paytaxtı güclü polis və təhlükəsizlik nəzarətində olub. Fransanın Daxili İşlər Nazirliyi bildirir ki bütün ölkə boyunca keçirilən yuxusuz yadetmə mərasimlərinə 700 min insan qatılıb.



# Aşıq İslam Keşəlidə

Aşıq İslam Ərdənərin bacısı Anaxanım Seyid qızı (əslində İsəxan qızı) Dəmirçihasannı nahiyəsindəki Kürüstü Keşəli kəndində bu sətirlərin müəllifinin də mənsub olduğu Qıllözdü soyundan, bölgədə çox hörmət-izzət sahibi olan Omar Usub oğlunun həyat yoldaşı idi. 1972-ci ilin yazında Qəmbər Omar oğlu dayısı Aşıq İslamı öz doğma bacısı ilə görüşdürməyə müvəffəq oldu. Belə ki, çox uzun əzab-əziyyətdən sonra onun Aşıq İslamı Keşəliyə gətirməsi (əlbəttə, həmin dönəmdə Sovetlər birliyi üçün tam qapalı olan Türkiyədən, özü də lap yaxın qohumunu gətizdirmək hər oğlun ağzı deyildi) bütün mahalda böyük səs-səda doğurdu.

Aşıq İslam Gürcüstana o vaxtlar bölgəyə ən yaxın Türkiyə ilə SSRİ arasında yeganə gömrük məntəqəsi Ermənistanın Leninakan rayonu (indiki Gümrü) ərazisindən keçdi. Onu sərhəddə Qəmbər və bir neçə nəfər qohumu qarşıladı. Aşıq İslam özü ilə bərabər kiçik oğlu, atasının adını daşıyan on yaşlı İsəni də gətirmişdi.



**Arxada:** *(soldan)* Cəlal Hümmətoğlu, Qəmbər Omaroğlu, Camal Hümmətoğlu, İslam Ərdənər və Mikayıl Azaflı.
**Öndə:** *(soldan)* Osman Əhmədoğlu, Cabbar Səttaroğlu və Əyyub Əhmədoğlu.

Hörmətli oxucular, Aşıq İslam Ərdənər haqqında ötən saylarımızda ətraflı məlumat verdiyimizə görə, bu yazıda onu bir daha təkrarlamağa ehtiyac duymadıq.

Aşıq İslamın Keşəliyə gəlişi o zamanlar tarixi bir hadisəyə çevrildi. Onunla görüşə gələnlərin, aşığı ziyarət edənlərin sayı-hesabı yox idi. Bütün el bu nadir hadisəni bayram edirdi. Keşəli kəndinin sakinlərinin hamısı evbaşı onunla görüşmək üçün növbəyə dururdular. Əsas və başlıca məqsəd də hər kəsin öz qohumundan xəbər almaq ümidi ilə görüşə can atması idi.

Günlərlə davam edən belə görüşlərə demək olar ki, mahalın əksər kəndlərindən axıb gələnlərin də ardı-arası kəsilmirdi.

Düz 61 gün Keşəlidə qonaq qalan Aşıq İslam Ərdənərin əvvəlcə Anaxanım Seyid qızının gəlin olduğu Qıllözdü nəslinin hər evi, sonra vaxt, imkan verdikcə kəndin əksər sakinləri növbə ilə Aşıq İslama qonaqlıq verdilər. Bəzən uzaq kəndlərdən Aşıq İslamın sorağı ilə gələnlər elə qonaqlıq verilən evlərdəcə görüşərdilər. Bəzən də vaxt azlığından bir gündə iki, hətta üç evdə ziyafət verilirdi. Qonaqlıq üçün növbə çatmayanda inciyənlərin, küsənlərin də sayı az olmurdu. Çağrıldığı evə Aşıq İslam başının bütün yığnağı ilə (ən azı 15-20 nəfərlə) bərabər gedərdi. Keşəlilərin yaddaşında qalan bir də o oldu ki, Aşıq İslam özü ilə bərabər gətirdiyi balaca İsə, heç bir qonaqlığa getmir, bütün günü kəndin ortasında ancaq velosiped sürürdü.

Aşıq İslamın çox iti yaddaşı, zəngin biliyi, möhkəm hafizəsi gələnlərin, sorğulaşanların demək olar ki, əksəriyyətini razı sala bilirdi. Bəlkə də müsafirə bu sahədə kömək edən onun sənəti – aşıqlığı daha çox yardım edirdi. Axı, o zamanlar aşıqlar günlərlə, aylarla ev üzü görməz, oba-oba gəzər, toy-düyünlərdə iştirak edər,bir çox müdriklərin söhbətlərini dinləyər, ağsaqqallardan çox şey öyrənərdilər. Aşıq İslam da ustad bir aşıq olduğu üçün Ərdahan, Qars, Sarıqamış, Çıldır, İqdır, bu yandan Ərzurum, Ərzincan və s. yörələrdə qarapapaqların yaşadıqları bölgələrin hamısını, çox gözəl tanıyırdı. Ona görə də verilən hər bir suala, anında ətraflı şəkildə, qarşısındakını razı sala biləcək qədər dolğun cavab verirdi.

İki aydan artıq qonaq qaldığı vaxt ərzində Aşıq İslamın başının yığıncağı heç vaxt əskik olmadı. O, həm də arada vaxt tapıb, ünlü Brçalı aşıqları ilə görüşürdü. Saraşdı Söyünlə görüşü xüsusilə yadda qalan oldu. Türkiyədən Saraçlı Söyün üçün gətirdiyi hədiyyə - döşə taxılan sazın qızlıdan düzəldilmiş nişan formasını o belə izah etdi: Saraçlı Söyünü bütün Türkiyədəki qarapapaqlar çox sevir. Onun oxuduğu havaların hamısını bizim oradakı aşıqlar hər məclisdə oxuyurlar. Mən də onun vurğunuyam, bura gələndə ən böyük arzularımdan biri də Saraçlı Söyün və Mikayıl Azaflı və başqaları ilə görüşmək idi. İnşallah, yəqin imkan olsa, Allah izin versə, qohumlarım mənə yardımçı olsa, Mikayıl Azaflı ilə də görüşmək qismət olar. Aşıq İslamın qonaq olduğu müddətdə onun yanından heç ayrılmayanlardan biri də Qıllıözdü Camal Mirzə oğlu Qəmbərlə birlikdə müsafirin bütün diləklərini yerinə yetirdikləri kimi, Tovuza Mikayıl əzablının dalınca da getdilər. Doğrudur, o zamanlar kənddə maşın çox az idi. Yəni ancaq barmaqla sayılacaq qədər vardı. "Moskviç" markalı maşınlardan biri də Camal Mirzə oğlunda olduğu üçün, həm də o bölgəni yaxşı tanıdığına görə, Mikayıl Azaflının dalınca getmək, onu gətirmək, onun əlində su içimi kimi bir şey idi.

Bir də ki, Aşıq İslamın ürəyindən keçənləri yerinə yetirəndə elə bil onların özləri də çox rahatlanırdılar. Bütün qohum-əqraba əlindən gələni edirdi ki, bu cür nadir qonaq 50 ildə bir dəfə ələ düşüb. Onlar haradan biləydilər ki, 20-30 ildən sonra sovetlər birliyi dağılacaq, qapılar açılacaq, hamı öz doğmalarına qovuşacaq. Bu onların heç yatanda da yuxularına girməzdi. Bütün camaat elə düşünürdü ki, onların elə görüb-görəcəyi təkcə Aşıq İslam olacaq.

İnsafən, onu da deyək ki, Aşıq İslam da hər şeyi çox dəqiq, yeri-yerində anladır, verdiyi məlumatların hamısı düppə-düz idi. Kişidə sanki bir Allah vergisi vardı. Ensiklopedik məlumatlara malik idi.

O, bu sətirlərin müəllifinə də həmin vaxtlar Aşıq İslam Ərdənəri görmək xoşbəxtliyi nəsib elədi. O zamanlar mən tələbə idim. A.S.Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinin birinci kursunda oxuyurdum. Yaşadığım Keşəli kəndi Tbilisdən çox da uzaq olmadığına görə şənbə günü mühazirələrdən sonra evə gələr, bazar ertəsi səhər tezdən dərsə qayıdardım.

Aşıq İslam Keşəlidə olan həmin yaz günlərinin birində evə gələrkən bizdə qonaqlıq üçün möhkəm hazırlıq gedirdi. Sən demə, Aşıq İslama ziyafət vermək növbəsi bizim evdə imiş.

Saat təxminən 11-12 olardı, Aşıq İslam və başının bütün yığnağı gəldi (O, hara qonaq gedirsə ətrafında Keşəlinin hörmətli ağsaqqalları və ziyalıları, bir də əgər Borçalının başqa kəndlərindən onu ziyarətə gələn vardısa, birlikdə gələrdilər). O, əgər çağrıldığı ev çox da uzaqda deyilsə, hökmən hamı ilə birlikdə kəndin içi ilə piyada gedərdi. Doğrudur, hörmət əlaməti olaraq ev sahibi onun dalınca maşın göndərərdi, ancaq Aşıq İslam çox vaxt piyada getməyi tərcih edirdi. Nəhayət, hörmətli qonaq gəlib çıxdı. O arıq cüssəli bir kişi idi. Əynində boz plaş, başında qara panama vardı. Hamı ilə sanki lap çoxdan tanış imiş kimi görüşdü. Çoxlarımıza qəribə gəlirdi. Sanki o, Türkiyədən yox, elə Soyuqbulaq kəndindən gəlmişdi. Hamı müsafirlər üçün hazırlanmış otağa daxil oldu. Aşıq İslam lap başda əyləşdi. Təbii ki, bütün məclisin diqqəti onda idi. Hamı sakitcə oturub ona qulaq asırdı, heç kəsdən səs çıxmırdı. Kimsə dillənsəydi, o da ancaq sual verib, nəyisə soruşanda səsi çıxardı. Bütün məclis boyu ancaq o danışdı. Aşıq İslam elə bir şirin Borçalı ləhcəsi ilə danışırdı ki, nabələd adam onun heç Keşəlidən belə qırağa çıxmadığına şübhə ilə yanaşmazdı. Yaxşı yadımdadır, həmin məclisdə Camal Mirzə oğlu hörmətli qonağa belə bir sual verdi: "Ay İslam dayı, sizin kəndlərlə, bizim kəndlərin fərqi varmı, oranın kəndlərimi yaxşıdır, yoxsa buranın kəndlərimi? Aşıq İslam: "A bala, Camal, sizin kəndlər bizim kəndlərin yanında şəhərdir, sizin şəhərlər bizim şəhərlərin yanıda kənddir" – deyə cavab verdi. Bu cür, Türkiyə ilə buranı müqayisə etməklə bağlı olurdu qonağa verilən sualların əksəriyyəti. Keşəlidə olduğu müddətdə onu ziyarətə gələnlərin çoxlarının zahiri görünüşünə görə hansı soydan olduğunu təxmin edərək, yanılmadan söyləyirdi, bu el ozanı – Aşıq İslam Ərdənər.

Nəhayət, vaxt tamam oldu. 61 gün arxada qaldı. Ayrılıq çox ağır idi. Yenidən bu acını yaşamaq bacı və qardaş üçün, eləcə də ailədəkilər üçün həddən artıq çətin idi. Göz yaşlarını saxlaya bilməyən Aşıq İslam bacısını qucaqlayaraq "Allah böyükdür, ölmədik görüşdük, inşallah, kim bilir, bəlkə də yenə də görüşmək qismət oldu" – sözlərini sakitcə söylədi.

Aşıq İslam gəldiyi Gümrü keçid məntəqəsindən geri Qarsa döndü. Doğma kəndinə qayıdanda aşığın başına onda toplaşanların sayı-hesabı yox idi. Orada yanına yığılanlara burada gördüklərini o şeirlərlə söylədi:

*Ay ellər, mən sizə vəsf edim, gəlin,*
*Mən orda söhbətə, sözə mat qaldım.*
*Şairə, şeirə, dastan deyənə,*
*Aşığın çaldığı saza mat qaldım.*

*Gəzdim o aranı, gördüm Göy dağı,*
*Bərəkətdən coşub Kürün qırağı,*
*Gözəl bar veribdi baxçası-bağı,*
*Ordakı bahara, yaza mat qaldım.*

*Yazsam yazdığımı, yazardım nələr,*
*Həsrəti ox kimi sinəmi dələr,*
*Mənnən yaşayacaq bu xatirələr,*
*Ürəkdən deyirəm sizə, mat qaldım.*

*Aşıq İslam gəşt eylədi, dolandı,*
*Bəzən çox duruldu, bəzən bulandı,*
*Həsrətin, hicranın oduna yandı,*
*Sinəm üstə yanan közə mat qaldım.*

Gəzib-dolandığı obalarda, Keşəlidə gördüklərini Aşıq İslam belə anlatdı ordakılara.

Vətəninə dönərkən başqa bir şeirində aşıq soruşanlara, öz yaxın qohum-əqrabalarına, 50 il həsrətdə olduğu bacısı Anaxanımı, bacısı oğlu Qəmbəri, doğma Keşəli kəndini belə qələmə almışdır:

*İllər boyu həsrət idim bajıma,*
*Borçalıya gedib, onu şad gördüm.*
*Dedim bir son qoyum mən bu ajıma,*
*Qohum gördüm, qardaş gördüm, yad gördüm.*

*Borçalı mahalı, Keşəli kəndi,*
*Şadlığa bələndi, bayrama döndü,*
*Surfalar açıldı, od-ojax yandı,*
*Unudulmaz ləzzət gördüm, dad gördüm.*

*Çox şükür, şənlənif odu-ojağı,*
*Məni şad eylədi, dolu bujağı,*
*Gözəl bar verifdi baxçası-bağı,*
*Qəmbərtək vəfalı bir övlad gördüm.*

*Azaflının qəm, kədər var sözündə,*
*Çəkdiyi əzabın izi üzündə,*
*"Dilqəmi", "Dübeyti" çalar sazında,*
*Sinəsində yanan alov-od gördüm.*

*Gəşt etdim aranı, seyr etdim Kürü,*
*Xəyalən gəzirəm yenə o yeri,*
*Bu elə gəldiyim saatdan bəri,*
*Yaddan çıxmayacaq söz-söhbət gördüm.*

*Saraşdı Söyünnən, Kamandar qağa,*
*Hər ikisi bənzər qaynar bulağa,*
*Sənətində oxşar uca bir dağa,*
*İlhamını yel qanadlı at gördüm.*

*Borçalı elində gördüyüm hamı,*
*Şadlığa çevirdi qəmli dünyamı,*
*El bağrına basdı Aşıq İslamı,*
*Çox böyük gələnək, orf-adət gördüm.*

Ümumiyyətlə, Aşıq İslam Ərdənər, Borçalıya, Keşəliyə xeyli şeir həsr etmişdir.

**Mahmud Kamaloğlu**

# Havana tərəflərin havası

## *(transformasiya)*

Mirzə Zeynaldan (Allah Mirzə Cəlilə Reyhanəli rəhmət eləsin) nə gözləsəm də bu yastıdaban yolu qətiyyən gözləməzdim: eşidəndə ki, o, Kubaya köçmək istəyir, açığı, elə bildim duyanlar səhv duyublar. Bəlkə, sadəcə olaraq, can Azərbaycanın dilbər guşələrindən olan və artıq "Kuba siqar evi"nin də açıldığı Quba bölgəsinə səyahət etmək fikrinə düşüb? Axı səhhət bulmağı səyahət qılmaqla qazanan səyyah indi nə qədər desən tapılır.

Birisi zərbafta zarafatla deyir: – Eşitdiyimə görə Havana tərəflərin havasından olmaz; Mirzə Zeynal havasını dəyişməyə getmiş olar. Guya Havana ağzıhərzə Atlantik okeanının o üzbəsurət üzündə deyil, az qala qulağımızın dibindəki Başkeçiddə – Şamdüyə tərəflərdə imiş.

O birisi dəmli-dəsgahlı üsulla dillənir ki, xeyr, havasını elə şəhri-Tiflisdə, Lilo tərəflərdə hava limanında da dəyişə bilərdi. Mirzə Zeynalınkı əfsanəvi Fidel Kastroluqdur. Hələ yeniyetməykən "Kastro idealı"nın təsirinə düşmüşdü; görünür, ideal altına düşmək ahıllıq çağına yaxın da izsiz ötmür.

Üçüncünün dedikləri isə adamı az qala arazbarı abdallığa aparıb çıxarır: sən demə, Kuba Amerika qitəsinin uzunömürlülər ölkəsi olaraq uzun illərdir ki, liderliyi özündə saxlayırmış. Havana tərəflərdə ləvənd "komendante" ləqəbli Fidelin əmrlərindən artıq həkimlərin yoxlama çağırışı mühümlük kəsb edirmiş; yəni həkim səni müainəyə çağırdımı, əlində yağın da daşsa getməlisən. Üstəlik, oralarda "quaran" adlı ekstrat da hazırlayırlar ki, bu da seksual istəyi artırmaq baxımından vayqanlı "viaqra"dan da üstün imiş! Sən demə, Kubada Platonun "Eros"undan, Freydin "libido"sundan və Yunqun "psixoloji enerji"sindən filhəqiqət fərqli olaraq "quaran"ın gətirdiyi istək – təkcə seksual istək deyilmiş, həm də qurub-yaratmaq, həyat eşqi, mənəvi tərəflərə yaxın, puç və batil arzulara uzaq durmaq istəyi imiş. Bir sözlə, bu ekstrat A, B, C və E vitaminlərinin balansını "südlüplov" saxlaya bilirmiş.

Dördüncünün "ehtimal nəzəriyyəsi"ndə ABŞ prezidenti Obamanın rəsmi olaraq düz 53 ildən sonra Kuba ilə diplomatik və iqtisadi münasibətlərin bərpasını bəyan etməsi də göstərilir. Əlbəttə, digər sarı simli səbəb kimi



Fidel Kastronun bu yaxınlarda layiq görüldüyü və bir növ "Çin Nobeli" adlandırılan "Konfutsi" mükafatı da (axı Kastro nüvə siyasətinə qarşı çıxır) dördüncünün gündəmindədir.

Amma Mirzə Qələm mənə pərişanhal pıçıldayır ki, ayıbdır axı, Mirzə Qələmin Kuba səfərinin sərhesab səbəbi nə əfsanəvi Fidel Kastroluq, nə hava dəyişmək, nə də "libido" artırmaq ola bilər. Nəsə ayrı məsələ olmuş olacaq. Baxarsan, inşallah, sabahda-birigündə aydınlaşar. Axı Mirzə Zeynal Kuba haqqında elə bizim bildiklərimizi bilirdi: unudulmaz Heminqueyin Kubalı qoca balıqçı Santyaqodan bəhs edən dünyalarca məşhur "Qoca və dəniz"ini *("The Old Man and the Sea")* və Qrem Qrinin Kubanın paytaxtı Havana ilə bağlı "Bizim adam Havanada" *("Our Man in Havana")* romanını...

Hərə bir fırlanqaç firqəçi fərziyyə yürütməkdə olsun, sizə kimdən xəbər verim, bəxtinə Havana boyda qənimət düşən Mirzə Zeynaldan...

Mirzə Zeynal – hansı minvalla ki, Heminqueyin Kubalı qəhrəmanı dalbadal düz 84 gün dənizə çıxmışdı və əlinə bir şey keçməmişdi və düz 84 gündən sonra əlinə ən böyük qənimət düşmüşdü, həmin oxşar minvalla – düz səkkiz ay dörd gün işsiz qalmışdı.

Sonra maliyyəsi ABŞ-a məxsus "Vita" (anaxronizm mənimdir) adlı qeyri-hökumət təşkilatında iş alır və həmin təşkilatın xəşəm xətti ilə də kvalitativ Kubaya yollanır...

**P. S.**

***İnsan hüquqları hər cür siyasətdən daha üstün və daha mühüm olduğuna görə, bunu da deyim: çox güman ki, Mirzə Zeynal Havana tərəflərdən qayıdantək, öz gecə-gündüzünü tövbə ilə açacaq və Əyriqarın ətəklərinə yaxın yaşayan qardaşlarının hüquqları ilə də yaxından tanış olacaqdır...***

**İbrahimxəlil**

# Heydər Əliyev Sarayında Polad Bülbüloğlunun 70 illik yubileyi qeyd olunacaq

***Fevralın 4-də Heydər Əliyev Sarayında xalq artisti, bəstəkar, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun 70 illik yubileyi qeyd olunacaq.***




Mədəniyyət və Turizm Nazirliyindən APA-ya verilən məlumata görə, bəstəkarın 70 illiyi ilə əlaqədar keçiriləcək tədbirlərə hazırlıqla bağlı nazirlikdə iclas keçirilib.

Nazir müavini Ədalət Vəliyevin rəhbərlik etdiyi iclasda nazirliyin məsul əməkdaşları, mədəniyyət müəssisələrinin rəhbərləri iştirak edib. Ə. Vəliyev bildirib ki, yubiley tədbirləri il ərzində Bakıda, Moskvada, Türkiyədə, Gürcüstanda və Rusiyanın bir sıra digər şəhərlərində qeyd ediləcək.

Yubileylə əlaqədar fevralın 3-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında "Eşq və Ölüm" baletinin yeni quruluşda premyerası olacaq.

# Yeni il şənliyi gürcü dilində



Marneuli bələdiyyəsinin Ağməmmədli ümumi məktəbində "Yeni il" münasibətiylə "Yeni il" karnavalı keçirildi. Şənliyin konsert proqramını X^a və X^b sinif şagirdlərinin gücü ilə məktəbin gürcü dili müəllimi Medea Xaçıdze hazırlamışdı. Şagirdlərdən Nərgiz İsmayılova, Aliyə Tükənova, Aysun Musayeva, Zakir və Elmir Ayvazovlar, Aytac Səfərova, Lamiyə İsmayılova və başqaları gürcü dilində dünya xalqlarının adət-ənənələri haqqında məlumat verdilər, şeirlər söyləyib, mahnılar oxudular. Onuncuların gürcü dilində çıxışları alqışlarla qarşılandı. Söhbət əsnasında məktəbin direktoru Əşrəf Tükənov və məktəbin tədris işləri üzrə direktor müavini Baris Nəzərov belə dedi: Bizim gürcü dili müəllimlərimizin hamısı bacarıqlıdır. Tamara Abbasova, Şahzadə Qurbanova, Saniyə Əliyeva və başqaları, Medea müəllimə ilə birlikdə məktəbimizdə öz işinin peşəkarıdırlar və onlar şagirdlərlə səmimi mehribanlıqla məşğul olurlar.

# Tarı kim unudar?



Tar musiqi alətləri içərisində ən ecazkar səsə malik musiqi alətidir. Bəzi Şərq musiqi tədqiqatçılarının dediklərinə görə, tar guya XI əsrdə İranda yaradılıb, sonra Azərbaycana keçib. Dövrümüzün məşhur folklorşünaslarından olan Nəcəfqulu Abbaszadə dəqiq mənbələrdən arayıb-axtarıb öyrənibdir ki, ilk tar 1746-cı ildə düzəldilib. 1846-cı ildə Şuşada anadan olan məşhur ud və tar ustası Mirzə Əsəd oğlu Sadıqcan (bəzi dərsliklərdə Mirzə Sadıq oğlu Sadıqcan) Əmrah Gülməmmədov sazı 11 telə çatdırıb sazda "Çoban bayatı" ifasına nail olduğu kimi, o da tarın quruluşunu dəyişərək telini 5-dən 11-ə çatdıraraq tarın çalınmasını dizdən sinəyə qaldırıb. Sadıqcanın tarın mükəmməlləşməsində ən böyük xidməti ondadır ki, o pərdələrə dəyişikliklər edərək ilk dəfə tarın pərdəsini 17-yə çatdırıb "Segah" və "Şur" muğamlarının səslənməsini yüksəltmişdir. Tara zəng və bəm simlərini artıraraq instrumental solo ifaçılarına nail olmuşdur. Tarı sinədə və başı üstünə qoyub çalmaq tərzinin musiqi qabiliyyətini gücləndirir və zəngin ifalar gətirir. Belə ifalar dinləyicinin qəlbinə tez yol tapır, başa düşülür. Tar həm muğam üçlüyündə, həm də orkestrlərdə istifadə olunur. Bəzi musiqişünasların qeydlərinə görə, muğam ifaçılarını çox əvvəllər tar və kaman çalğı alətləri müşayiət etmişdir. Get-gedə toy və başqa şənliklərdə rəqs edənlərin və ritmli mahnılara, tələbkarlığı zərb aləti olan dəfin (qaval) üçlüyə daxil olmasına səbəb olur. İndiki zamanda da belə tərkibdə musiqiçilərimiz onu əvəzsiz və dəyişilməz çalğı alətləri qrupu kimi yaşadır.

Azərbaycanın, eləcə də bütün türk aləminin korifey və unudulmaz bəstəkarı Üzeyir Hacıbəyli (Hacıbəyov) tarın pərdələrinə ciddi nəzər yetirərək, onun pərakəndə düzəlişini dəqiq ölçü ilə sıraya düzüb, tarın notla çalınmasına nail olmuşdur.

Tar Türkiyə və Orta Asiyada 2 və 6 telli olub "dütar" adlanır. Bugünkü tar ifaçılığının səviyyəsi Sadıqcan ifaçılığının zirvəsində dayanır.

**Şahvələd Tükənli,**
***Marneuli təhsil resurs mərkəzinin köməkçi metodisti***

# Ən az qoyulan adlar




Azərbaycanda ötən il uşaqlara qoyulan adlar arasında populyarlıq qazanmayan adların siyahısı açıqlanıb.

Ədliyyə Nazirliyindən verilən məlumata görə, ötən il doğulan oğlan uşaqlarına verilən adlar arasında populyarlıq qazanmayan ad Elgün adı olub. Belə ki, cəmi 235 uşağa Elgün adı verilib.

Oğlan adları arasında üstünlük təşkil etməyən digər adlar isə Röyal (267), İlkin (259), Fuad (284), Sübhan (299) olub.

Qız uşaqlarına verilən adlar arasında üstünlük təşkil etməyən ad isə Arzu adıdır. Belə ki, ötən il doğulan 270 qıza Arzu adı verilib. Üstünlük təşkil etməyən qız adları arasında Gülər (284), Lalə (295), Əsmər (299), Sevinc (321) adları da var.

Qeyd edək ki, ötən il uşaqlara qoyulan adlar arasında Yusif və Zəhra adı üstünlük təşkil edib. Belə ki, ötən il 3967 uşağa Yusif, 3608 uşağa isə Zəhra adı verilib. Həmin adlar son 5 ildə ən çox verilən adlar olub.

# ...gör fələk nə sayır



İnsan özü boyda arzularla gəlir bu dünyaya və böyüdükcə dünyası da böyüyür. Ətraf getgedə genişlənir, qohumlar da, dostlar da, tanışlar da çoxalır. Və dostların, qohumların, ailə üzvlərinin əhatəsində insan həmişə bu gözəl dünyanın gözəlliyini hiss edir və ona həyat eşqi verən insanların arzularının həyata keçməsinə imkan daxilində köməklik edir, ona isə yaxınları kömək edir. Qarşılıqlı sevgi-məhəbbət yaranır və beləcə-beləcə qısa insan ömrünü yaşayır, həyatını vaxtlı-vaxtsız başa vurur. Ancaq vaxtında olan hər şey toy-bayram olur deyirlər... Əfsuslar olsun ki, bəzən fələk biz saydığımızı yox, özü saydığını sayır, istəsək də, istəməsək də Tanrının yazdığı alın yazısı, qisməti, taleyi ilə barışmaq məcburiyyətində qalırıq...

Doktor Hümbət iki qızdan sonra dünyaya gələn oğlunu həmişə sağlam və gümrah görmək üçün adını Gümrah qoydu. O, da adına layiq, atasının, nəslinin adına layiq oğul oldu. Orta məktəbdə də, əsgərlikdə də, institutda da nümunəvi olmağa çalışdı və oldu da. Sonra "halal süd əmmiş" bir el qızı müəllim ailəsində böyüyüb tərbiyə almış Zəmilə xanımla ailə həyatı qurdu. Bir cüt gözəl övladı – Məhəmməd və Aysel dünyaya gəldi. Hər ikisi orta məktəbi əla qiymətlərlə qurtarıb yüksək balla instituta qəbul oldular. Uşaqların ata sevgisi, atalarının isə övlad sevgisi sözlə ifadə olunmayacaq dərəcədə şirin və səmimi idi. Bu şirinliyə, bu şirin həyata elə bil göz dəydi birdən. Təzə-təzə Məhəmməd institutu qurtarıb işə düzəlmişdi. Cəmisi bir neçə dəfə ilk qzancı ilə valideynlərini sevindirmişdi. Yenicə Allaha şükür demək istəyirdi. Və birdən-birə arzularının şahə qalxan vaxtı ömrünün 46-cı qışında əcəl adlı bir kabusla qarşılaşdı. Cəmisi ikicə ay xəstə olduğunu, ağrıdığını kiçik qardaşı Bəxtiyara gizlincə söylədi, heç kəsə bildirmək istəmədi. Çünki xaiyyətcə çox sakit olan Gümrah hisslərini heç vaxt büruzə verməzdi, sakit təbiətli idi. Hər şeyi daxilən çəkər, kimsəyə əziyyət vermək istəməzdi və vermədi də - bircə gün belə xəstə yatmadı.

Canı-qanı qədər sevdiyi qızı Ayselə yuxularda qonaq gəldi tez-tez. Onun göz yaşlarını görməmək üçün elə yuxularda gəldi, yuxularda da getdi.

Adətən bacılar həmişə böyük qardaşın adını and yeri, güvənc yeri hesab ediblər. Ancaq bacıları Sevda da, Nahidə də, Sona da, Kifayət də bundan sonra onun adına necə and içəcəklər? Neyləməli, həyatın amansız qanunlarına boyun əyməliyik, çünki bu, bizim taleyimiz, alın yazımızdır. Mərziyyə nənəyə, Hümbət əmiyə Allahdan səbr diləyirəm. Məhəmmədin və Ayselin arzularının həyata keçməsi naminə Vətən torpağının üstündə doyunca gəzə bilmədin, ancaq özün boyda torpağımızın altında əzizlərin üçün bir ziyarətgah qurdun. Özü də çox az bir zamanda.

Rahat uyu bu torpaqda, əziz qardaşım.

Rahat uyu, ona görə ki, sənin övladlarınla bağlı həyata keçirə bilmədiyin arzularını həyata keçirmək üçün kiçik qardaşın Bəxtiyar və bütün səni sevən yaxınlarının hamısı əllərindən gələni edəcəklər.

Rahat uyu, ona görə ki, səndən sonra arzularının davamı olan övladların, sənin vaxtındakı kimi, həmişə üz ağardacaqlar.

Rahat uyu, ona görə ki, o rahatlığı sən özün sağlığında qazanıbsan. Allah sənə rəhmət eləsin! Torpağın nurla dolsun, yerin behişt olsun! Amin!

Sən həmişə qəlbimizdə yaşayacaqsan!

**Çingiz Yaqubov**

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi tanınmış jurnalist, Azərbaycan Dövlət Televiziyasının Gürcüstan üzrə xüsusi müxbiri ***Şahismayıl Şəmmədoğluna*** oğlu **Azərin** faciəli vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

Azərbaycan Aşıqlar Birliyinin katibi, "Ozan Dünyası" jurnalının baş redaktoru Musa Nəbioğlu və Bakı şəhər Sabunçu rayonundakı 271 nömrəli məktəbin direktoru, yazıçı-publisist Səməndər Məmmədli jurnalist ***Şahismayıl Şəmmədoğluna*** oğlu **Azərin** faciəli vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

LEVAN SANİKİDZE – 90

# Böyük alim və istedadlı ədib



Yanvarın 26-da məşhur gürcü yazıçısı, tarixçisi Levan Sanikidzenin anadan olmasının 90 illik yubileyi tamam olur. O, hərtərəfli və zəngin alim-yazıçı idi. "Qınsız qılınclar" əsəri ilə Levan Sanikidze əsrlərlə yaşayacaq. Doğma xalqının qəhrəmanlığının, romantizminin tarixini əks etdirən, bütün nəsillərin oxucusunun qəlbini oxşayan bu nümunəvi kitab onun, necə deyərlər "ömür kitabı" idi. "Qınsız qılınclar" əsərindən başqa müəllifin qələminə onlarla monoqrafiyalar, sənədli yazılar, dram əsərləri, tragediyalar və komediyalar məxsusdur. Onların bir çoxu gürcü tarix və ədəbiyyatının qızıl fonduna daxildir.

Levan Sanikidze 1925-ci il yanvarın 26-da Ambrolauri rayonunun Buqeuli kəndində anadan olmuşdur. 1945-ci ildə doğma kəndində orta məktəbi bitirir və təhsilini Kutaisi Pedaqoji İnstitutunun tarix fakültəsində davam etdirir. 1942-1945-ci illərdə əsgərlik borcunu yerinə yetirir. Əsgərlikdən qayıtdıqdan sonra təhsilini ikinci kursdan davam etdirir və 1948-ci ildə institutun tarix fakültəsini fərqlənmə ilə bitirir. Elə həmin il institutun aspiranturasına, qədim ölkələrin tarixi ixtisasına qəbul olunur və 1953-cü ildə namizədlik, 1967-ci ildə isə doktorluq dissertasiyasını müdafiə edir.

Levan Sanikidze 1952-ci ildən öz ixtisasına uyğun olaraq mühazirələr oxumağa başlayır. 1953-1954-cü illərdə o, Kutaisi Pedaqoji İnstitutunda qiyabi təhsil üzrə direktor müavini vəzifəsində işləyir. Professor seçildikdən sonra (1968-ci il) tarix kafedrasına (daha sonra dünya tarixi kafedrasına) müdirlik edirdi və eyni zamanda filologiya fakültəsinin dekanı idi. 1975-ci ildə o, fəaliyyətini Tbilisi Dövlət Univetrsitetində davam etdirir. 1981-ci ildə həmin ali təhsil müəssisəsində qədim dünya tarixi kafedrasına müdir seçilir. O, kafedraya 20 il ərzində rəhbərlik etmişdir. Burada o, bir çox tələbələr, magistrantlar, aspirantlar, elmlər namizədləri və doktorlar yetişdirmişdir.

Levan Sanikidze 2002-ci il 29 yanvarda vəfat etmişdir.

Levan Sanikidzenin qələmi çox zəngin idi. Onun 700-ə yaxın əsəri mövcuddur və hər biri öz qeyri-adiliyi ilə fərqlənir. Onun elmi irsi, əsasən, qədim dünya tarixi və Gürcüstanın orta əsrlər tarixi sahələrinə aiddir. Qədim dünya tarixinə aid birinci kitabı – "Pont padşahlığı" – 1956-cı ildə çap olunmuşdur. Daha sonra "Pun müharibələrinin tarixi", "Qədim dünya salnamələri", "Mari və Sulla", "Roma tarixi-prinsipat", "Roma tarixi-dominant", "Aresin fədakarlığı", "Qeysərnamə", "Makedoniyalı İskəndər" və s. kitabları çap edilmişdir.

Levan Sanikidzenin doğma tarixinin araşdırılmasına verdiyi töhfələri olduqca vacibdir. Onun "Kolx qızının hekayəsi", "Ana tarix" (iki cilddə), "Üç yüz-üç yüz", "Xobi çayı kənarında qətl", "Dilə abidə layiqdir", "Qiorqi Atonelinin duası", "Qiorqi Saakadze", "Davitian-Tamariani", "Şəhidlər kitabı", "Üçüncü nəsil Gücüstan", "Bəyənilənlər və bəyənilməyənlər haqqında kitab", "777 gürcü fəziləti", "Haralını haraya aparasan" (4 cilddə), "Davitlər", "Qiorqilər", "Baqratlar", "Vaxtanqlar" və s. əsərləri dərin vətənpərvərlik ruhunun, elmi və ədəbi sintezin misilsiz nümunələridir.

Levan Sanikidzenin hərtərəfli istedadı onun dramatik fəaliyyətində də öz əksini tapmışdır. Onun pyesləri Gürcüstanın teatr səhnələrində müvəffəqiyyətlə tamaşaya qoyulurdu: "Qay Qrakx", "Medea", "Arxeoloji salnamələr", "Neron", "Qara dəniz gecələri", "Spartak", "Vaxtanq Qorqasali", "Şah Svimon" və s. Levan Sanikidze başqa millətə qarşı olan böyük sevgisini və hörmətini "Xabiruel...İsrail...yəhudi..." (gürcü və ingilis dillərində) kitabında nümayiş etdirmişdir. Kitab böyük istedada malik yəhudi xalqı haqqında indiyədək yazılmış ən yaxşı tarixi əsərlərdən biridir.

Levan Sanikidze gözəl hekayəçi idi. O, tələbə auditoriyasında öz böyük bilgisini gözəl danışıq qabiliyyəti ilə dinləyicilərinə çatdırırdı. Dostlar arasında və süfrə qarşısında əvəzedilməz tamadalığı ilə seçilirdi. O, natiqlik istedadına malik, vətənpərvər, öz ölkəsinə dəlicəsinə vurğun bir insan idi.

Levan Sanikidze görkəmli və istedadlı ictimai xadim idi. Onun təşəbbüssü ilə Gürcüstan demoqrafiya cəmiyyəti yaradılmışdır və özü uzun illər həmin cəmiyyətin prezidenti olmuşdur. Onun gördüyü işlər arasında Gürcüstan Humanitar Elmlər Akademiyasının yaradılmasını, fəaliyyətini və onun ilk və əvəzedilməz prezidenti olmasını xüsusilə qeyd etmək lazımdır.

Kutaisini öz doğma şəhəri sayırdı. Doğrudan da o, burada şəxsiyyət, alim, yazıçı və ictimai xadim kimi formalaşmışdır. Onun ailə faciəsi və sevinci bu şəhərə bağlıdır. Tbilisiyə köçdükdən sonra da Kutaisi ilə əlaqəsini kəsmirdi. O, ölənə qədər doğma universitetinin professoru sayılırdı. Levan Sanikidze çox gözəl dostluğa malik bir insan idi. O, böyük xeyriyyəçi, bir çox insanlara kömək əli uzadan bir şəxs idi. Səmimi qəlbdən öz doğma ölkəsinə xidmət edirdi, hər zaman hadisələrin mərkəzində dayanardı. O, insanlara sevgini, milli şüuru, xeyirxahlığı, əcdadlarının ənənələrini təbliğ edirdi. O, hər zaman həmvətənlərinə qonşuya sadiq olmağı, insanlığı öyrədərdi. Kəskin yumor hissi onun istedadını daha da rəngarəng edirdi, müasirliliyə yol açırdı.

Levan Sanikidze yalnız Gürcüstan tarixinə deyil, həmçinin, onun adət-ənənələrinə, milli dəyərlərinə də hədsiz əmək qoymuşdur. Bu istedadlı yaradıcı və tədqiqatçı şəxsiyyət hələ öz sağlığında ikən əvəzsiz mükafata layiq görülmüşdür. Bu mükafat doğma xalqının ona olan böyük sevgisidir.

Yəqin ki, oxucular Levan Sanikidzenin əsərləri ilə çox az tanışdırlar, çünki onun əsərləri azərbaycan dilinə tərcümə edilməmişdir və ya yalnız məhdud tədqiqatçılar dairəsinə məlumdur. Bizim fikrimizcə bu böyük alimin və ədibin əsərlərinin azərbaycan dilinə tərcümə edilməsinin, azərbaycan oxucusuna çatdırılmasının vaxtı çoxdan çatmışdır. Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan filialının rəhbəri şair-tərcüməçi Rafiq Hümmət və gənc alim və tərcüməçi Oqtay Kazımovun Levan Sanikidzenin əsərlərinin ana dilimizə çevirmək niyyətləri barədə məlumatımız var. Əminik ki, bu dəyərli ziyalılarımızın tərcümələri iki qardaş xalq arasında dostluğun və mədəni əlaqələrin möhkəmləndirilməsinə öz töhfəsini verəcəkdir.

Bir məqamı qeyd etmək də yerinə düşər. Levan Sanikidzenin oğlu Qubaz Sanikidze Gürcüstanda tanınmış siyasətçilərdəndir. O, "Gürcü arzusu" koalisiyasının liderlərindən biri, Gürcüstan Parlamentinin Diaspora və Qafqaz məsələləri komitəsinin sədridir. Cənab Qubaz həm də tarixçi alim, şərqşünas və tarix elmləri doktorudur. Qubaz Sanikidze öz çıxışlarında və elmi əsərlərində daima Gürcüstanda yaşayan azərbaycanlıların öz vətənlərinin azadlıq və istiqlaliyyəti uğrunda göstərdikləri şücaət və igidliklərini qeyd etmiş, onları Gürcüstanın layiqli övladları kimi qiymətləndirmişdir. Əlamətdardır ki, Xudu Borçalıya abidə qoyulması təklifini də Gürcüstan Parlamentindəki çıxışında məhz o qaldırmışdır.

**Raidə Dərziyeva**

# Seçicilərlə görüşdə problemlər müzakirə olundu

Yanvarın 6-da Gürcüstan Parlamentinin deputatı Mahir Dərziyev II Kosalı kəndində seçicilərlə görüş keçirib. Deputat "Gürcü arzusu" iqtidarının gördüyü işlər haqqında seçicilərə ətraflı məlumat verib. Kənd təsərrüfatı sahəsində nəzərdə tutulmuş proqramlar-meliorasiya, kooperasiya, kiçik fermer təsərrüfatlarına dəstək və s. barədə məlumat seçicilərin xüsusi marağına səbəb olub. Mahir Dərziyev qeyd edib ki, ölkədə görülən böyük işlər II Kosalı kəndindən də yan keçməmişdir. Uzun illər boyu yığılıb qalmış problemlərin həlli istiqamətində önəmli işlər görülmüşdür. Sereteli-Mirzoyevka-B.Muğanlı-II Kosalı avtomobil yolunun inşası üçün elan olunmuş tender başa çatmışdır və yaxın vaxtlarda işlər başlayacaqdır. Bununla da, II Kosalı və bu magistral yolun üzərində yerləşən digər kəndlərin yol problemi birdəfəlik həll olunacaqdır. II Kosalı və Lejbəddin kəndlərinin 1200 hektar torpaq sahəsini suvaracaq Lejbəddin nasos stansiyasının bərpasına da başlanılmışdır. Tikintidə işlər sürətlə aparılır və artıq yazda əhali suvarma suyundan istifadə edə biləcəkdir.




Mahir Dərziyev kəndə dəstək proqramı çərçivəsində görülən işlər, kəndin qazlaşdırılması, II Kosalı məktəbinin bərpası ilə bağlı suallara da cavab vermişdir. Kəns sakinlərindən Lətif Mustafayev, Ələddin Osmanov, Akif Osmanov, Sabir Mustafayev və başqaları çıxış edərək görülən işlərə görə kənd camaatı adından öz təşəkkürlərini bildirmiş, həmçinin, öz fikir və mülahizələrini söyləmişlər.

# Bəxtiyar Vahabzadənin 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalanıb

***Azərbaycan Prezidenti İlham Əliyev Bəxtiyar Vahabzadənin 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.***



Sərəncamda qeyd olunur ki, 2015-ci ilin avqust ayında Azərbaycanın xalq şairi, tanınmış dramaturq, ədəbiyyatşünas və ictimai xadim, SSRİ-nin və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 90 illiyi tamam olur.

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı tarixinin xüsusi mövqeyə malik görkəmli simalarındandır. Sənətkarın insanı daim mənəvi ucalığa səsləyən poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və ədəbi-ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində böyük rol oynamışdır. Tarixi-mədəni dəyərlərə ehtiram və ana dilinin saflığının qorunması Bəxtiyar Vahabzadənin fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edirdi.

Prezident milli ədəbi fikrin inkişafına dəyərli töhfələr bəxş etmiş xalq şairi Bəxtiyar Vahabzadənin 90 illiyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıb ki, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq şairi Bəxtiyar Vahabzadənin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi şairə ***Xəzangülə*** qardaşı **Nizaminin** vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***

# YENİ NƏŞR




Tanınmış tədqiqatçı Yusif Yusiflinin dünya şöhrətli dirijor Niyazinin həyat və fəaliyyəti, onun yaradıcılığı, Gürcüstanla, onun məşhur elm və mədəniyyət xadimləri ilə bağlılığından bəhs edən bu kitabın oxucular tərəfindən maraqla qarşılanacağına ümid bəsləyirik. Kitabın baş redaktoru professor Aysəba Əlizadə, redaktorları şair-publisist Səməndər Məmmədli və yazıçı-tərcüməçi Emin Elsevərdir. Kitab "Unversal" nəşriyyatında işıq üzü görmüşdür.

# Professor Zahid Qaralov vəfat etdi

İctimai-siyasi xadim, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin və Siyasi Şurasının üzvü, partiyanın Səbail rayon təşkilatının sədri, riyaziyyatçı alim, pedaqoq, pedaqoji elmlər doktoru, professor Zahid Qaralov vəfat edib.



Qaralov Zahid İbrahim oğlu 10 iyul 1934-cü ildə Gürcüstanın Bolnisi rayonunun Ormeşən kəndində anadan olub. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Fizika-riyaziyyat fakültəsini bitirib.

1995-2005-ci illərdə Milli Məclisin deputatı olub. Bir neçə dərslik və dərs vəsaitinin müəllifidir.

***Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi görkəmli ictimai-siyasi xadim, professor Zahid Qaralovun vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.***

***Allah rəhmət eləsin!***

# Qardabanidə "Gülüstan" jurnalı nəşr olunub




Qardabanidə "Gülüstan" jurnalı nəşr olunub. APA-nınGürcüstan bürosunun məlumatına görə, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyinin (GYMD) Qardabani şəhərində yerləşən ofisində "Gülüstan" jurnalının təqdimat mərasimi keçirilib. Tədbiri GYMD- nin sədri Musa Hacıyev açıb. O, çıxışında dərnəyin fəaliyyəti haqqında ətraflı məlumat verdikdən sonra bölgədə ailə və qadın dərgisinə ehtiyac olduğunu bildirib və "Gülüstan" jurnalının nəşr olunmasını günün tələbi hesab edib.

Tədbirdə Şərqi Gürcüstanın müftisi Yasin Əliyev, Türkiyənin Gürcüstandakısəfirliyinin Din İşləri məsələləri üzrə müşaviri Nəbi Gümüş, Salam Vəqfinin sədri İrakli Artmeladze, Gürcüstan Müsəlmanları İdarəsinin Kvemo Kartli üzrə nümayəndəsi və Gürcüstan Müsəlmanlar Vəqfinin sədri İnşallah Qasımov, "UĞUR" təşkilatinin sədri Hacı Bəkiroğlu, Qardabani Gənclər Mərkəzinin sədri Elsevər Əhmədov, Gürcüstan Gənclərini Maarifləndirmə Assosasiyasının sədri Bəxtiyar Tanrıverdiyev, "Gülüstan" jurnalının redaktoru Nabat Eminova, redaktor müavini Lamiyə Hacıyeva və başqaları çıxış edərək indiki vaxtda ailə və qadın məsələlərinə həsr olunan jurnalın dərc olunmasını vacib sayıblar.

Tədbirdə Rustavi Mədəniyyət Mərkəzinin nümayəndəsi Mustafa Sədi oğlu, Fatimeyi Zəhra cəmiyyətinin sədri Gülşən Nemətova, məktəb direktorları, ziylılar, yazıçılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

## Bu xüsusiyyətləri tərgit, xoşbəxtliyə qovuş

***Fransalı psixoloqlar nəhayət ki, xoşbəxtliyin açarını tapıblar. Bunun üçün heç də zəngin və xoş həyat lazım deyil.***

Fransalı psixoloq Bejuar de Lyanes insan xarakterinə xas səkkiz xüsusiyyəti aşkarlayaraq, ondan qurtulma nəticəsində xoşbəxt olmağın mümkünlüyünü iddia edib.

Bejuarın fikrinə əsasən, insan sadalanan mənfiliklərdən uzaqlaşmaqla bir neçə xəstəlikdən qurtulma şansını da əldə edir - depressiya, miqren, nevroz, ürək-damar xəstəlikləri və s.

Xoşbəxtliyə gedən yolu bağlayan xüsusiyyətlərin siyahısı:

1. Qürur
2. Xəsislik
3. Həsəd
4. Qəzəb
5. Şəhvət
6. Acgözlük (qarınqulu薄luq)
7. Məyusluq.
8. Lovğalıq.



# Cındır Osman

**O bir Övliya, O bir Dərviş.**

***Orhan Kaytıhan, Türkiyənin əski millət vəkili***

Ömrünün 55 ilini haqq qapısında – Hacımahmud Əfəndinin (Hajı Əfəndinin) ocağında ibadətlə keçirmiş. Seyid Nigarı həzrətlərinin "Divani-şərif"ini bir ömür sufi məclislərində avazla söyləmişdir. Türkiyənin Amasya şəhərində tikilən (bu yaxınlarda tikilməsinin 100 illiyi böyük təntənəylə qeyd olunan) "Şirvanlılar" Camesinin tikintisinin bütün pullarını (qızıl pul) ocağın ən inamlı və sədaqətli müridi Cındır Osman Qazağın incə dərəsində olan ziyarətgahından Amasyaya atla aparmışdır. Onun apardığı xalı-xalçaların sayı 600-dən çox olmuşdur. Adı bu gün də Amasyada böyük ehtiram və hörmətlə anılan Cındır Osman Borçalının Keşəli Şenniyində dünyaya gəlmiş və orada da Allahın rəhmətinə qovuşmuşdur.



Ortada - Cındır Osman

Azərbaycanın xalq şairi Mirvarid Dilbazi Osman babanı ömrünün sonuna qədər unutmamış, onun ruhuna dualar oxumuşdur.

Xalq şairi Nəriman Həsənzadə ötən yay "Şirvanlılar" camesinin tikilməsinin 100 illik bayramıyla əlaqədar Türkiyənin Amasya şəhərinə dəvət olunmuş və ordan böyük təəssüratla qayıtmışdır.

Xalq şairi "Seyid Nigari Türbəsi" adlı böyük bir poema yazmış və onu "525-ci qəzet"də dərc etdirmişdir. Bu poemanın V bölümü Cındır Osmanın kimliyini açmaq üçün bir açar kimidir.

Onu da söyləmək yerinə düşər ki, adına, imanına, əqidəsinə və etibarına bu gün Borçalıda, Qazaxda (İncə dərəsində) and içilən, haqqında təriqət əhlilərinin və din xadimlərinin, Türkiyədə əski millət vəkilinin sevə-sevə danışdıqları Cındır Osman bizim şair qardaşımız Dərviş Osman Əhmədoğlunun doğma babasıdır. Və babasının adını da bu gün o yaşadır.

Oxucuların istəyini nəzərə alaraq "Seyid Nigari Türbəsi" əsərindən bir parçanı "RegionPress"də dərc edirik.

**M.Kamaloğlu**

## Seyid Nigari Türbəsi

*(Poema)*

**V hissə**

O torpaq ki, məscidi,
türbəsi yoxdu,
orda əzan səsi yoxdu.
Eşqin piyaləsi yoxdu.
O qeybdən gələn səsdi.
Yer hər yerdə müqəddəsdi.
Ziyarət yerimiz çoxdu,
ziyarətgah olan yoxdu.
Məscid – minbərdi, mehrabdı.
Orda yerə ayaq basmaq
şair, özü bir savabdı.

Cındır Osman, salam qağa,
hardan gəlib düşdün yada.
Bir ayağın Qazaxdaydı,
bir ayağın Amasyada.
Qoy dillərdə gəzsin adın,

o yığılan qızılları,
sən daşıdın
Tanrı versin əvəzini.
Yoxsa necə tikərdilər
Seyidlərin türbəsini.
Amasiya,
Azərbaycan
ya Dağıstan...
həm yaxındı, həm də uzaq.
Gedib-gəlmək öz işindi,
asan olmur baş çıxarmaq
Kimlərlə üz-üzə oldun? –
özün bir möcüzə oldun.
– Dayı, nədir apardığın
eldən-elə?
–Yüküm qızıl, əynim belə...
İşim ağır, yolum uzaq,
köməyimə kim çatacaq!

Düzlüyünə
məhəl qoyan,
əlin üstə bir əl qoyan
olmadı heç.
– Dayı, sən keç.
– Oğul, amma yıxılmaram,
əyilmərəm,
Cındır Osman kişi mənəm!
Gülüşdülər,
– Ya dəlidi, ya da bivec.
– Dayı, sən keç!
Cındırına inandılar,
ağlına yox,
o "dayılar".
Keçdin rusun,
Osmanlının kömrüyünü.
Sən bağladın Cındır Osman,
zaman açdı
bu düyünü.
Qazaxda Mahmud əfəndi
eşitdi, güldü, bəyəndi,
səndən ötrü qəhərləndi.
"Cındır" sözü hallandıqca
dəyərləndi.
Kim ki, sənə cındır deyir,
batır mənə nizə kimi.
İpək üstə toxudardım
"cındırını" bəzək kimi.
Sən cındıra bükdün Osman,
paklığını,
düzlüyünü
Biz də gördük astarını
"üzlüyünü".
Adam da var, Osman qağa,
cındırını bükür amma
o paklığa.
Nə vicdana sığan şeydi,
nə namusa.
Yəqin mən də əl çalmışam
o dəyyusa

**Nəriman Həsənzadə**

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi sabiq məktəb direktoru **Fərhad Hüseynəli oğlu Gəncəyevin** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

Region PRESS
İctimai qəzet
Azərbaycanlıların Mədəniyyət Mərkəzi
№01 (176) 15.01.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır

**Ən böyük hakimiyyət özünə hakim olmaqdır.**
**Seneka Lutsius**

# Ana öpüşü güclü immunitet yaradır



Təzə doğulan körpələrin sağlamlığı ilə bağlı aparılan araşdırmalar yeni-yeni faktları üzə çıxartmaqdadır. Alimlərin apardıqları yeni təcrübələrə əsasən, ana öpüşü körpədə bəzi xəstəliklərə qarşı ömürlük immunitet yaradırmış.

Yeni Zelandiyadan olan bir qrup alimin apardığı uzun-uzadı araşdırma məhz bu nəticəni ortaya çıxarıb. Yeni doğulmuş körpələrə ana öpüşünün təsirini araşdıran alimlər müəyyənləşdiriblər ki, bu öpüş zamanı uşağın orqanizminə müəyyən bakteriyalar keçir.

Məhz həmin bakteriyalar körpədə angina, qulaq infeksiyası kimi xəstəliklərə qarşı immunitet yaradır.

# Bu qatara biletin qiyməti 2 min dollara yaxındır

***"Ferrari"nin dizaynerinə lüks qatar dizaynı üçün sifariş verilib.***



Yaponiyanın "JR East" dəmiryolu şirkəti "Ferrari"nin dizayneri Ken Okuyamaya 34 sərnişin tutumu olan lüks qatar dizayn etməsini sifariş edib.

Qatarda hər birində 5 lüks yer (suite) olan 10 vaqon, 1 ultra-lüks, 2 sərnişin vaqonu, yeməkxana və istirahət vaqonu olmazı nəzərdə tutulub.

Bütün lüks yerlərin duş və tualeti olan hamamı olacaq, yatacaq yer isə sadəcə ultra-lüks yerdə olacaq.

Bu qatarın 2017-ci ilin əvvəlində istifadəyə veriləcəyi bildirilib.

Qatarın qiyməti barədə məlumat verimməsə də, burda 1 nəfərin 2 gecəlik qiymətinin 1 765 dollar olacağı güman olunur.

# Bakı oteli dünyanın ən lüksləri sırasında

***"Fairmont Baku, Flame-Towers" mehmanxanası "Best Luxury Suite Hotel" mükafatına layiq görülüb.***

Fairmont BAKU FLAME TOWERS



Azərbaycan Mədəniyyət Nazirliyinin rəsmi saytına istinadən xəbər verilir ki, "Fairmont Baku" mehmanxanası "Dünya Lüks Otellər Mükafatı" təşkilatı tərəfindən "Ən yaxşı Lüks Suit Otel" mükafatına layiq görülüb.

"Dünya Lüks Otellər Mükafatı" dünya üzrə qonaqlara göstərilən xidmət səviyyəsinə görə otelləri bu kimi mükafatla təmin edən nüfuzlu beynəlxalq təşkilatdır. "Dünya Lüks Otellər Mükafatı" təşkilatı yalnız lüks otel sektoru üzrə ixtisaslaşıb və turizm sənayesinin yalnız bu sahəsi ilə maraqlanmır. "Dünya Lüks Otellər Mükafatı" təşkilatının fəaliyyətinə əsasən, yüksək keyfiyyətli müştəri xidmətinin otel personalı tərəfindən dərk olunması xidmətin davamlı olaraq yüksək səviyyədə saxlanılması baxımından vacibdir. Otel üçün müvafiq meyarlar üzrə irəli sürülmək və "Dünya Lüks Otellər Mükafatı" təşkilatının səsvermə prosesində iştirak etmək yüksək səviyyəli xidmətdir. Yalnız lüks bazarda fəaliyyət göstərən otellər və kurortlar "Dünya Lüks Otellər Mükafatı"nda iştirak edə bilərlər.

# Çox gülən qadınlar tez kökəlir

***Qadınlar gülərkən bundan sonra daha diqqətli olmalıdırlar.***

Amerikalı alimlər müəyyənləşdiriblər ki, ürəkdən gülmək iştahanı artırır. Komediyalara və yumor olan verilişlərə baxmaq qızlarda daimi aclıq hissi yaradır. Bu səbəbdən arıqlamaq və gözəl bədən fiqurasını saxlamaq üçün pəhriz saxlayan qadınlara mütəxəssislər komediya seriallarına baxmamağı məsləhət görür. Həmçinin kimsə onların yanında lətifə danışanda dərhal həmin yeri tərk etməlidirlər. Trillerlər və qorxulu filmlərə baxmaq isə qadınların iştahasını tamamilə küsdürür.



Kaliforniyadakı nevroloji mərkəzin ekspertləri tərəfindən aparılan araşdırmada 14 qadın iştirak edib. Onlar DVD-də müxtəlif emosiyalı kinolentlərə baxıblar. İlk olaraq xanımlara sevimli komediyalarına baxıblar. Daha sonra isə "Sıravi Rayanın xilas edilməsi" filmindən qanlı fraqmentlər göstərilib. Bu filmlərə baxmazdan əvvəl və sonra isə təcrübəyə qatılanların qan nümunələri götürülüb. Məlum olub ki, gülüş nəticəsində orqanizmdə leptinin səviyyəsi 15 faiz aşağı düşür. Bu maddə isə iştahanı öldürür. Bunun əksinə olaraq aclıq hormonu kimi bilinən qrelinin miqdarı isə 9 faiz artır. Qanlı və qorxulu filmlərin nümayişindən sonra isə xanımlardan heç biri yemək istəmir. Bu fakt bir daha sübut edir ki, kök insanlar yumşaqürəkli və şən olurlar. Arıq xanımlarda isə qəddarlıq hissləri güclüdür.

# Kriştianu Ronaldo "Qızıl top"un sahibi olub

***FİFA 2014-cü il üçün dünyanın ən yaxşı futbolçusunun adını açıqlayıb.***

İsveçrənin Sürix şəhərində keçirilən mərasimdə bu ada Portuqaliya millisinin və "Real" (Madrid) klubunun futbolçusu Kriştianu Ronaldo layiq görülüb.

Belə ki, səslərin 37,66 faizini toplayan Kriştianu Ronaldo rəqibləri argentinalı Lionel Messi (15,76%) və alman Manuel Noyeri (15,72%) qabaqlayıb.

Qeyd edək ki, K.Ronaldo bu mükafata artıq üçüncü dəfə layiq görülür. O, 2008-ci və 2013-cü illərdə də dünyanın ən yaxşı futbolçusu seçilmişdi.



## Lətifələr

*Bir gün bir kişi psixoloqun yanına gəlir və deyir:*
*- Həkim, mənim arvadım dəli olub*
*- Hardan bilirsiz?*
*- Evdə qanadlı ağ atlar uçur amma arvadım onları görmür.*

***

*Ər öz arvadını gözəllik salonun qarşısında gözləyir. Arvadı salondan çıxanda, əri ona baxıb, sakit səslə:*
*- Vecinə də alma, əsas odur ki, cəhd eləbdin...*

***

*Hakim müttəhimə:*
*-Oğurluq edərkən, heç olmasa qoca ananız barədə düşündünüzmü?*
*-Düşündüm, ancaq orada ona yarayan heç nə tapa bilmədim.*

Təsisçi: Azərbaycanlıların Mədəniyyət Mərkəzi (AMM)
AMM-in sədri: Fazil HƏSƏNOV

Redaktor: Binnət ƏLİOĞLU
Məsul katib: İbrahimxəlil
Texniki redaktor: Əkrəm QƏHRƏMANOV
Kompyuter tərtibatçısı: Bahar MƏMMƏDOVA

Redaksiyanın ünvanı:
Marneuli şəhəri, Çolokaşvili küç. 3
İndeks: 3000 Tel.: (+995 357) 22 29 29
Faks: (+995 357) 22 57 88
E-mail: regionpress@yahoo.com
Qəzetimizi Facebook səhifəmizdə də oxuya bilərsiniz:
https://www.facebook.com/regionpress.AMM

Qeydiyyat şəhadətnaməsi:
09.09.2004. №43/5 z—9

Fakta və ifadə olunan fikrə görə məsuliyyəti müəlliflər daşıyır.
Qəzet pulsuz yayımlanır.
TİRAJ: 2000